5 aprel 2019 №25 (1610)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## İsmayıl Şıxlının 100 illiyi ilə əlaqədar tədbirlər planı təsdiq olunub

Prezident İlham Əliyevin 28 yanvar 2019-cu il tarixli sərəncamı ilə bu il görkəmli nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Xalq yazıçısı İsmayıl Şıxlının (1919-1995) 100 illiyi qeyd olunur.

XX əsr Azərbaycan bədii nəsrinin inkişafında özünəməxsus yeri olan İsmayıl Şıxlı xarakterlər və yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik obrazlar silsiləsi yaradıb. Ədibin məşhur "Dəli Kür" romanı ictimai şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə hesab olunur. Yazıçının xalq yaradıcılığından güc alan əsərləri dərin həyat fəlsəfəsi və milli koloriti ilə oxucuların rəğbətini qazanıb. Üslub mükəmməlliyi, bədii dilin obrazlılığı, daxili aləmin təsvirinin genişliyi və əlvanlığı İsmayıl Şıxlı nəsrinə xas olan səciyyəvi cəhətlərdir.

Dövlət başçısının yazıçının 100 illiyi haqqında sərəncamının icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyinin əmri ilə tədbirlər planı təsdiq olunub. Sənəddə ölkəmizin mədəniyyət müəssisələrində ədibin yubileyinə həsr olunan ədəbi-bədii gecə, konfrans, dəyirmi masa, kitab sərgisi və digər tədbirlərin keçirilməsi əksini tapıb.

*davamı səh. 4-də*

## UNESCO-nun Bakı sessiyasına 200-dən çox ölkədən nümayəndə qatılacaq

2019-cu ilin 30 iyun – 10 iyul tarixlərində Bakıda keçiriləcək UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında dünyanın 200-dən çox ölkəsindən 3000-ə yaxın nümayəndənin iştirakı gözlənilir. Azərbaycana gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları isə ölkə başçısının sərəncamı ilə sadələşdirilir.

*səh. 3*

## Portuqaliya Prezidenti Firəngiz Əlizadəyə mükafat təqdim edib

"Aga Khan Foundation" bu il ilk dəfə musiqi sahəsində beynəlxalq mükafat təsis edib. Bəstəkarlıq sahəsində mükafatın ilk laureatı azərbaycanlı bəstəkar və pianoçu, UNESCO-nun "Sülh artisti" Firəngiz Əlizadə olub.

*səh. 4*




## Sənət axşamlarından Nəsimi poeziyasına

Böyük şair, mütəfəkkir, qüdrətli söz ustadı İmadəddin Nəsiminin bəşəri ideyalarla zəngin irsi təkcə özündən sonrakı klassik Azərbaycan ədəbiyyatının, ana dilində poeziyamızın deyil, həmçinin Yaxın Şərqdən Mərkəzi Asiyayadək bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına təsir göstərib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə dahi şairin 650 illik yubileyi, eləcə də ölkəmizdə elan edilən "Nəsimi ili" mədəniyyət, təhsil, elm ocaqlarında silsilə tədbirlər, layihələrlə qeyd edilir.

Kitabxanalarımızda Nəsiminin əsərlərinin nəşrləri, şairin həyat və yaradıcılığı haqqında çoxlu kitablar, monoqrafiyalar var. Şairin əsərləri rus, ingilis, alman, fransız, türk, fars və başqa dillərdə də işıq üzü görüb. Nəsimi haqqında müxtəlif ekran, səhnə, musiqi əsərləri var, amma humanizm carçısı olan şairin irsi ilə ən yaxın, bilavasitə tanışlıq mənbəyi onun özünün əsərləridir. "Mədəniyyət" qəzetinin "Afişa" əlavəsinin növbəti sayı oxucuları bu əngin söz dünyasına kiçik səyahətə aparır.

*davamı səh. 7-də*

# Cəfər Cabbarlı və milli istiqlal hərəkatı

### Görkəmli ədibə həsr olunan kitabın təqdimatı və konfrans keçirildi



Aprelin 4-də M.F.Axundzadə adına Milli Kitabxanada böyük şair, yazıçı və dramaturq Cəfər Cabbarlının anadan olmasının 120 illiyinə həsr edilən elmi konfrans və filologiya elmləri doktoru, professor Asif Rüstəmlinin "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" kitabının təqdimatı keçirildi.

Mədəniyyət Nazirliyi, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Milli Kitabxananın birgə təşkilatçılığı ilə keçirilən tədbirin iştirakçıları əvvəlcə ədibin həyat və yaradıcılığına həsr olunan fotosərgi, Cəfər Cabbarlının əsərləri və haqqında yazılmış kitabların sərgisi ilə tanış oldular.

Tədbiri giriş sözü ilə Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq bildirdi ki, bu gün Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Cəfər Cabbarlının yaradıcılıq irsinə toplaşmışıq. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Cəfər Cabbarlının 120 illiyi ölkəmizdə silsilə tədbirlərlə qeyd olunur.

AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli bildirdi ki, Cəfər Cabbarlı milli ədəbiyyatın parlaq ənənələrini qorumaqla yanaşı, ədəbi-mədəni, ictimai mühitdə yenilik və müasirlik uğrunda mübarizəni yaradıcılığının əsas qayəsinə çevirib. Yaratdığı güclü xarakterlər və koloritli obrazlarla bədii-estetik fikir salnaməmizə misilsiz töhfələr verib. O, şəxsiyyət azadlığının və humanizmin, milli azadlıq və istiqlal ideallarının mahir tərənnümçüsü olub.

Onun zəngin bədii irsi müasirliyini və aktuallığını bu gün də qoruyub saxlayır. Müəllifin milli və bəşəri dəyərləri ifadə edən dramaturgiyası bu gün də Azərbaycan teatrının repertuarında yer alır.

*davamı səh. 2-də*

## Bakıda beynəlxalq klassik və folklor musiqisi müsabiqəsi keçirilir

Xəbər verdiyimiz kimi, aprelin 2-də Bakıda gənc ifaçıların "World Harmony" ("Dünya harmoniyası") Beynəlxalq klassik və folklor musiqisi müsabiqəsi başlayıb.

MDB-yə üzv ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin birgə təşkilatçılığı ilə keçirilən müsabiqədə ayrı-ayrı yaş qrupları üzrə 10 ölkədən – Azərbaycan, Almaniya, Belarus, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Rusiya, Ukrayna, Macarıstan və Litvadan 6 xor, 2 rəqs kollektivi, 19 qarışıq tərkibli ansambl – ümumilikdə 300-dən çox iştirakçı var.

Gənc ifaçılar instrumental solo (fortepiano, simli alətlər, nəfəs və zərb alətləri, xalq çalğı alətləri), vokal (akademik, milli, estrada), rəqs və instrumental ansambllar (klassik və milli), vokal ansambllar (akademik, milli və estrada), xor və rəqs kollektivləri olaraq öz istedadlarını beynəlxalq münsiflər heyəti qarşısında göstərirlər.

*davamı səh. 2-də*

## 3-cü Respublika Xalq Teatrları Festivalı başlanıb

Xalq yaradıcılığının inkişafı, qorunması və təbliğinə dəstək məqsədilə Mədəniyyət Nazirliyində "Azərbaycan xalq yaradıcılığının 2019-2023-cü illər üzrə inkişafına dair Strateji Fəaliyyət Planı" hazırlanıb və təsdiq edilib.



Fəaliyyət planında xalq teatrlarının əhalinin estetik zövqünün formalaşdırılması və asudə vaxtının səmərəli təşkilində rolunun artırılması üçün sistemli işlərin, o cümlədən festival, müsabiqə və digər tədbirlərin təşkili nəzərdə tutulub.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə aprel-may aylarında 3-cü Respublika Xalq Teatrları Festivalı keçirilir. Kürdəmir rayonunda festivalın ilk seçim mərhələsi gerçəkləşib. Seçim mərhələsində Kürdəmir, Bərdə və Sabirabad regional mədəniyyət idarələrinin tabeliyində fəaliyyət göstərən mədəniyyət mərkəzləri, evləri və klublarında fəaliyyət göstərən xalq teatrı kollektivləri iştirak edib.

*davamı səh. 3-də*

## Bu günümüzdə nəyə baxıb gülək?

"Əvvəlcə adamlar güldülər, məzhəkəçilər isə sonra peyda oldular". Bu, çoxmənalı, insanı dürlü-dürlü düşüncələrə qərq edən, bədii söz yaradıcılığına daha yaxın kəsləri isə həm də meydan tamaşalarından üzü bəri klassik və çağdaş komik dramaturgiya, komediya teatrının vəziyyəti barədə söz deməyə səsləyən kəlamı XVIII-XIX əsrlərdə yaşamış alman publisisti, filosofu Jan Pol (Johann Paul Friedrich Richter) söyləyib.

Məramımız gülüşün insan həyatında psixoloji və fizioloji olaraq yerindən, əhəmiyyətindən danışmaq deyil. Bu işi görmək, araşdırmaq üçün alimlər var. Biz bir qədər "dargözlük" edirik: teatr səhnəsində komediya janrının nümunəsi kimi təqdim edilən əsərlərin repertuardakı yeri və payı barədə danışmaq istəyirik. Niyə məhz teatrdan danışırıq, kinodan yox? Bu da səbəbsiz deyil.

Paytaxtımızdakı böyük truppaya malik teatrların cari repertuarını nəzərdən keçirəndə nə görürük? Azərbaycan Dövlət Akademik Musiqili Teatrından başqa (Opera və Balet, Kukla teatrları istiqamət və ifaçılıq xüsusiyyətləri baxımından müzakirə edilmir) heç bir teatrın afişasında müasir müəllifin komediyası yoxdur.

Bəli, klassiklərimiz – Mirzə Fətəlinin də, Mirzə Cəlilin də komediyaları repertuardadır. Özü də təkcə Akademik Milli Dram və Gənc Tamaşaçılar teatrlarında deyil, həm də Akademik Rus Dram Teatrında.

Bəs müasirlər, XX və XXI əsrdə yazıb-yaratmışlardan kimlərin əsərləri var repertuarda? Məsələn, Milli Dram Teatrında Hüseynbala Mirələmovun "Vəsiyyət" komediyasını qeyd edə bilərik. Teatrın repertuarında maraqlı komik əsərlər var, amma cari repertuarda yer alanlar heç də öz müəlliflərimizin əsərləri deyil.

*davamı səh. 5-də*

## Öz dövrünü aşan şair

Füzuli haqqında: "Dünya səni qocaltdı, yaşıdın olsun deyə...", "Bəzən necə gözəlsən, Ölüm, – sən ey səadət!", "Səni yaxşı görmək üçün, Kədərimi bir daş kimi Qoymuşam ayağımın altına, Qalmışam boylana-boylana" demiş, övladlarını və "seçilmiş oxucularını" başdan-başa milli mənəviyyatla qidalandırası ləyaqətli bir ömür yaşamış Əli Kərim...

Bu şairin ilk gənclikdə yazdığı "Qaytar ana borcunu" şeirini hələ də onun vizit kartı sayırlar. Məncə, bu vurğunluqda bir günah da yatır – "Atamın xatirəsi" şeirinin kölgələnməsi "babal"ı.

*səh. 6*

"Prometey Bakıda" adlı konsert proqramı təqdim edilib



*səh. 4*

Görkəmli şəxsiyyətlərin, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiya yaradılıb

*səh. 2*



Mədəniyyətimizin yeni bələdçisi işıq üzü görüb

*səh. 8*

# "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı"

## Milli Kitabxanada adibə həsr olunan kitabın təqdimatı və konfrans keçirildi

əvvəli səh. 1-də

Akademik ədibin teatr və kino sənətlərinin inkişafında xidmətlərindən danışdı. Qeyd etdi ki, C.Cabbarlı təkrarsız yaradıcılığı ilə dramaturgiyamızın yüksəlişi tarixində yeni mərhələnin təməlini qoyub. Əsərləri milli teatrda mühüm hadisə kimi dəyərləndirilib. Uzun illər boyu tamaşaçıların bir neçə nəslinin estetik zövqünün formalaşmasında əvəzsiz rol oynayıb. O da diqqətə çatdırıldı ki, bu yubileyin keçirilməsi Cabbarlı yaradıcılığına yenidən nəzər salmağa və yeni araşdırmalara yol açacaq.

İsa Həbibbəyli elmi redaktoru olduğu "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" kitabından da söz açdı, nəşri görkəmli ədibə həsr olunmuş dəyərli tədqiqat əsəri kimi səciyyələndirdi. Bildirdi ki, yaxın günlərdə oxucular professor Asif Rüstəmlinin tədqiqatları əsasında C.Cabbarlının ədəbi ictimaiyyətə məlum olmayan bir sıra yaradıcılıq nümunələri ilə də tanış olacaqlar.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev qeyd etdi ki, C.Cabbarlının 120 illik yubileyi ilə bağlı ölkə başçısının müvafiq sərəncamının icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyinin əmri ilə tədbirlər planı təsdiq olunub. Tədbirlər planında il ərzində görkəmli ədibin yubileyinin mədəniyyət, elm və təhsil ocaqlarında keçirilməsi nəzərdə tutulur. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında C.Cabbarlının 120 illiyinə həsr olunmuş təntənəli yubiley tədbiri keçiriləcək. Yubiley ili çərçivəsində böyük yazıçı-dramaturqla bağlı nəşr layihələri də planlaşdırılır.







Vaqif Əliyev onu da vurğuladı ki, hər il olduğu kimi, bu il də bir sıra görkəmli ədiblərin yubileyləri dövlət səviyyəsində qeyd olunacaq. Bütün bunlar ölkəmizdə söz sənətinə verilən dəyərin bariz göstəricisidir.

Tədbirdə daha sonra Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid və başqaları çıxış edərək böyük ədibin qısa, lakin zəngin yaradıcılıq yolundan söz açdılar. Professor Asif Rüstəmlinin "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" kitabından söz açan natiqlər bildirdilər ki, tədqiqat əsərində dramaturqun Azərbaycan Xalq Cümhuriyyəti dövründə, ondan əvvəlki və sonrakı fəaliyyəti, sovet rejiminə qarşı qeyri-leqal mübarizədə milli istiqlal hərəkatına (1920-1923) qoşulması, gizli "İstiqlal" (1922-1923) qəzetinin nəşr prosesində iştirakı və həbs olunması faktları zəngin arxiv materialları əsasında geniş işıqlandırılıb.

* * *

Çıxışlardan sonra elmi məruzələr dinlənildi. Konfransda professor Şirindil Alışanlı "Cəfər Cabbarlı irsi zamanın və sənətin sınağında", filologiya elmləri doktoru, dosent Əlizadə Əsgərli "Cəfər Cabbarlı irsinə Heydər Əliyev qiyməti", filologiya üzrə fəlsəfə doktoru, dosent Safura Quliyeva "Cəfər Cabbarlının poeziyası", filologiya üzrə fəlsəfə doktoru Tahir Məsimov "Xarakterlər dramaturgiyası" adlı məruzələrlə çıxış etdilər.

**Savalan FƏRƏCOV**

# Görkəmli şəxsiyyətlərin, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiya yaradılıb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiyanın yaradılması haqqında Qərar imzalayıb.

Komissiyanın sədri Baş nazirin müavini, katibi Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiridir. Komissiyaya müdafiə, daxili işlər, mədəniyyət, gənclər və idman, təhsil, səhiyyə, maliyyə, əmək və əhalinin sosial müdafiəsi nazirlərinin müavinləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Turizm Agentliyinin sədr müavinləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Milli Arxiv İdarəsinin rəis müavinləri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri daxildir.

Qərara əsasən, dövlət müəssisələrinin, təşkilatlarının, idarələrinin və digər obyektlərin adlarının dəyişdirilməsi, onlara görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin adlarının verilməsi ilə əlaqədar daxil olmuş təkliflər və Nazirlər Kabineti qarşısında qaldırılmış vəsatətlər Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələri tərəfindən araşdırılır və nəticəsi barədə arayışla birlikdə baxılması üçün komissiyaya təqdim edilir.

# Gürcü teatrı Akademik Milli Dram Teatrının qonağıdır

Aprelin 5-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Medeya Evripidə qarşı" tamaşası təqdim olunacaq. Gürcüstanın Mesxeti (Axaltsixi) Peşəkar Dövlət Dram Teatrında Janri Kaşianın eyniadlı pyesi əsasında hazırlanan tamaşanın rejissoru Georgi Şalutaşvilidir.




Tamaşanın səhnəqrafiya işi Lela Peradzeyə, geyim üzrə rəssam işi Nana Koranaşviliyə, xoreoqrafiya Tamta Tavdişviliyə məxsusdur, bəstəkarı Aleksi Turiaşvili, səhnə hərəkəti üzrə rəssam Cuna Tumanişvilidir.

Qeyd edək ki, tamaşa Azərbaycan Teatr Xadimləri İttifaqı ilə Gürcüstan Teatr Cəmiyyəti arasında ötən ilin noyabrında imzalanan memorandum çərçivəsində təqdim olunacaq.

Aprelin 5-də Azərbaycan Teatr Xadimləri İttifaqında iki ölkə arasında mədəni əlaqələrin inkişaf etdirilməsinə xidmət edən daha bir əməkdaşlıq sənədi – Gəncə Dövlət Dram Teatrı ilə Gürcüstanın Ozurgeti Dövlət Teatrı arasında memorandum imzalanacaq.

# Astrid Lindqren mükafatı belçikalı yazara verilib

Belçikalı yazıçı və şair Bart Muyart uşaq ədəbiyyatı sahəsində Astrid Lindqrenin xatirəsinə həsr olunmuş beynəlxalq mükafatın laureatı olub.

B.Muyart yaradıcılığa 1978-ci ildə başlayıb. Onlarla kitabı, pyes və şeirlər toplusu nəşr edilib. Əsərləri 22 dilə tərcümə olunub.

B.Muyart təəssüratlarını bölüşərək deyib: "Mənim sevincimin həddi-hüdudu yoxdur. Astrid Lindqren mənim kumirimdir. Onun xatirəsinə həsr olunmuş mükafata növbəti dəfə namizəd irəli sürülmək mənim üçün çox vacib idi. Sözün düzü, hesab edirdim ki, bu mükafatı heç vaxt ala bilməyəcəyəm. Lakin bu baş verdi və mən çox xoşbəxtəm".

# "Məndə sığar iki cahan"

## Özbəkistanda Nəsimiyə həsr olunmuş poeziya müsabiqəsi

Azərbaycanda keçirilən "Nəsimi ili" ilə əlaqədar Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) "Məndə sığar iki cahan" adlı poeziya müsabiqəsi elan edib.

Müsabiqəyə Azərbaycan və Özbəkistan şairləri Nəsimi yaradıcılığına həsr etdikləri yeni şeirləri və poemaları, habelə Nəsimi dəst-xəttinə, yaradıcılıq üslubuna uyğun şeirlər təqdim edə bilərlər.

Toplanan əsərlər sonra hər iki dilə tərcümə olunaraq kitab halında çap ediləcək. Müsabiqədə Azərbaycandan və Özbəkistandan iki qalib müəyyənləşəcək və onlara AMM-in diplom və pul mükafatları təqdim olunacaq.

Yekunda Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti və "Kitob dunyasi" qəzetinin təşkilati dəstəyi ilə Daşkənddə "Canımı qıldım fəda..." adlı təntənəli poeziya axşamının keçirilməsi nəzərdə tutulub.




# Bakıda beynəlxalq klassik və folklor musiqisi müsabiqəsi keçirilir

## "World Harmony" 10 ölkədən 300-dən çox iştirakçını bir araya gətirib





əvvəli səh. 1-də

Yarış həyəcanını azaltmaq üçün təşkilat qrupu müsabiqə günlərində ustad dərsləri və konsert proqramları da təşkil edib.

Aprelin 4-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında belə konsertlərdən biri gerçəkləşdi. Sankt-Peterburq Musiqi liseyinin müəllim və şagirdlərinin konsertində təhsil ocağını ölkə və beynəlxalq müsabiqələrdə uğurla təmsil etmiş ifaçılar çıxış edirdi.

Qonaq kollektiv Bakı konsertinə ciddi hazırlamışdı. İki hissədən ibarət konsertin proqramı da istər ayrı-ayrı alətlər üçün yazılmış əsərlər baxımından, istərsə də müəlliflər baxımından geniş və zəngin idi. Frederik Şopenin, Astor Piatsollanın, İqor Stravinskinin, Modest Musorqskinin, Yohann Bramsın əsərlərinin səsləndiyi konsertdə Fikrət Əmirovun "Lirik rəqs" əsərinin də yer alması qonaqların Azərbaycan musiqisinə ehtiramı, iltifat jesti kimi səsləndi. "Sankt-Peterburqun gənc istedadları 2018" mükafatının laureatı Aleksey Safarovun gitarada ifa etdiyi bu əsər böyük maraqla qarşılandı.

Konsertdə liseyin beynəlxalq müsabiqələr laureatı olan müəllimləri ilə yanaşı, uşaq və yeniyetmələr üçün keçirilən müxtəlif şəhər və ölkə miqyaslı sənət yarışlarının qalibi olmuş şagirdlər də rəngarəng proqramla çıxış etdilər.

"World Harmony" müsabiqəsinin iştirakçıları və münsiflər heyətinin üzvləri də tamaşaçıların arasında idilər. Xatırladaq ki, müsabiqənin münsiflər heyətinə iştirakçı ölkələrdən 19 nəfər mütəxəssis daxildir.

Aprelin 7-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi və qala-konserti keçiriləcək.

**G.MİRMƏMMƏD**

# "Aprel yüksəkliyi" sənədli filmi nümayiş olunub

Aprelin 3-də Mədəniyyət Nazirliyi tərəfindən Heydər Əliyev adına Ali Hərbi Məktəbdə Aprel döyüşlərinə həsr olunmuş tədbir təşkil edilib.

Ali Hərbi Məktəbin zabit, gizir, həmçinin müəllim və kursantlarının iştirak etdiyi tədbirdə nazirliyin Kinematoqrafiya şöbəsinin əməkdaşı Almaz Sultanzadə və məktəbin şəxsi heyətlə iş üzrə rəis müavini – şöbə rəisi, polkovnik Emin Səfərov çıxış ediblər. Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsini təşkil edən Aprel döyüşlərindən və bu döyüşlərdə ordumuzun düşmənə qarşı göstərdiyi şücaətdən bəhs edilib.

Sonra rejissor Zamin Məmmədovun "Aprel yüksəkliyi" sənədli filmi nümayiş etdirilib və böyük maraqla qarşılanıb.

Qeyd edək ki, ekran əsəri dövlət sifarişi ilə "Salnaməfilm" studiyasında çəkilib.



# Aprel şəhidlərinin xatirəsi anılıb

Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində Aprel şəhidlərinin xatirəsi anılıb.

S.Vurğun adına Mərkəzi kitabxanada MKS-yə daxil olan kitabxanaların oxucuları arasında bədii qiraət müsabiqəsi təşkil edilib. Qaliblər fəxri fərmanla mükafatlandırılıb. Mərkəzi Uşaq kitabxanasında "Unudulmaz el yolunda canı qurban olanlar" adlı xatirə günü keçirilib.

Bülbül adına Uşaq incəsənət məktəbində Aprel döyüşlərində şəhid olan Əbdülməcid Axundovun xatirə gecəsi keçirilib. Şəhidin anası Ceyran Axundova çıxış edərək oğlu haqqında xatirələrini bölüşüb.

Sonda şəhidə həsr edilmiş "Mən səninləyəm, Ana Vətən" adlı bədii-sənədli film nümayiş etdirilib.

# UNESCO-nun Bakı sessiyasında 200-dən çox ölkədən 3 minədək nümayəndənin iştirakı gözlənilir

2019-cu ilin 30 iyun – 10 iyul tarixlərində Bakıda keçiriləcək UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında dünyanın 200-dən çox ölkəsindən 3000-ə yaxın nümayəndənin iştirakı gözlənilir. Azərbaycana gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları isə ölkə başçısının sərəncamı ilə sadələşdirilir.




Bu barədə Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini Vasif Eyvazzadə məlumat verib.

"Bu il ölkəmiz daha bir mötəbər tədbirə ev sahibliyi edəcək. UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası Bakıda keçiriləcək. Sessiya çərçivəsində xüsusi proqramlar nəzərdə tutulub. Bu, "Gənc peşəkarlar"ın və "Abidə menecerləri"nin forumlarıdır", - deyə V.Eyvazzadə söyləyib.

Sessiyada iştirak etmək üçün Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu il iyunun 20-dən iyulun 10-dək Azərbaycanın beynəlxalq hava limanlarında viza ala biləcəklər.

Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama uyğun olaraq, Xarici İşlər Nazirliyi tərəfindən viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə UNESCO-ya və xarici ölkələrin müvafiq orqanlarına məlumat veriləcək. Eləcə də məlumatın Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsi təmin ediləcək. Dövlət Miqrasiya Xidməti isə ölkəmizə uçuşlar həyata keçirən aviaşirkətlərə sessiyada iştirakla əlaqədar viza prosedurlarının sadələşdirilməsi barədə məlumat verəcək.

Qeyd edək ki, UNESCO-nun Dünya İrs Komitəsinin illik sessiyaları 1977-ci ildən keçirilir. İlk sessiya həmin il Parisdə təşkil olunub. Postsovet məkanında bu mötəbər tədbirə indiyədək iki şəhər – Litvanın paytaxtı Vilnüs (2006) və Rusiyanın Sankt-Peterburq (2012) şəhərləri ev sahibliyi edib. Ötən il Dünya İrs Komitəsinin 42-ci sessiyası Bəhreynin paytaxtı Manamada keçirilib. UNESCO-nun 193 tamhüquqlu və 11 assosiativ üzvü var.

## Mədəniyyət naziri Bakı şəhərində vətəndaşları qəbul edib

Aprelin 4-də mədəniyyət naziri Əbülfəs Qarayev Bakı Şəhər Mədəniyyət Baş İdarəsində vətəndaşları qəbul etdi. Qəbulda vətəndaşların müxtəlif mövzularda müraciətlərinə baxıldı.



Qəbula yazılmış sakinlər tərəfindən mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən musiqi və incəsənət məktəblərinin, teatrların fəaliyyəti ilə bağlı təklif və müraciətlər səsləndirildi. Həmçinin vətəndaşlar fəxri adların verilməsi, təhsil, işlə təmin olunma və digər məsələlərlə bağlı xahişlərini də nazirə çatdırdılar.

Qəbulda müraciətlərin bir qismi həllini tapdı, digər məsələlər araşdırılması üçün nəzarətə götürüldü və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verildi.

# 3-cü Respublika Xalq Teatrları Festivalı başlanıb

### Festivalın ilk seçim mərhələsi Kürdəmirdə keçirilib





*əvvəli səh. 1-də*

Hazırda respublikanın paytaxt və regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında ümumilikdə 37 xalq teatrı fəaliyyət göstərir. Teatrların repertuarında vətənpərvərlik, Qarabağ mövzuları xüsusi yer tutur.

Kürdəmir rayon Mədəniyyət mərkəzində təşkil edilən tədbirdə ilk olaraq Füzuli rayon Mədəniyyət evinin Xalq teatrı "Xocalı" kompozisiyası ilə çıxış edib.

Beyləqan rayon Mədəniyyət mərkəzinin Xalq teatrı iki tamaşa təqdim edib. Azərbaycan xalq nağılı əsasında qurulan "Ağıllı Fatma" tamaşası münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Sonra milli vətənpərvərlik hislərini daşıyan "O yurda bayrağı biz taxacağıq" kompozisiyası göstərilib.

Seçim mərhələsində Bərdə rayon Mədəniyyət mərkəzi Xalq teatrının təqdim etdiyi Süleyman Rüstəmin "Çimnaz xanım yuxudadır" tamaşası da maraqla qarşılanıb, münsiflər tərəfindən müsbət qiymətləndirilib.

Yevlax şəhər Yaradıcılıq evinin Xalq teatrı ikipərdəli "Qadınlar" tamaşasının quruluş forması və həvəskar aktyorların oyunu da münsiflərin təqdirini qazanıb.



Sonra həmin kollektiv tərəfindən Lev Qraçın "Cırtqoz" pyesi nümayiş olunub.

Sabirabad rayon Mədəniyyət mərkəzinin Adil İsgəndərov adına Xalq teatrı Seyidməmməd Əliyevin quruluşunda Üzeyir Hacıbəylinin "Ər və arvad" musiqili komediyasını nümayiş etdirib. Musiqilərin yazılmasında Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbinin müəllimləri köməklik ediblər. Tamaşanın rəssamı Fərhad Əliyev, qrim ustası Esmira Zeynalovadır. Xalq teatrı milli vətənpərvərlik ruhunda "Hardan başlayır vətən" tamaşasından parçalar da təqdim edib.

Daha sonra Yevlax şəhər Mədəniyyət mərkəzinin Kukla xalq teatrı tərəfindən "Dəli keçi" tamaşası göstərilib. Bildirilib ki, mərkəzdə uşaqlar üçün təşkil edilən tamaşalar həvəslə baxılır.

Qeyd edək ki, festivalın seçim mərhələsində fərqlənən kollektivlər Bakı şəhərində təşkil olunacaq final mərhələsinə dəvət olunacaqlar. Xalq teatrlarının tamaşalarını Şuşa Dövlət Dram Teatrının baş rejissoru, Əməkdar artist Loğman Kərimovun sədrliyi ilə münsiflər heyəti qiymətləndirir. Heyətə nazirliyin Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin Xalq yaradıcılığı sektorunun müdiri Vüqar Məmmədov, şöbənin aparıcı məsləhətçisi Elgün Əliyev, Gənc Tamaşaçılar Teatrının rejissoru Gülnar Hacıyeva, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, dosent Azad Şükürov, Bakı Xoreoqrafiya Akademiyasının baş müəllimi, Əməkdar mədəniyyət işçisi Atababa Hacıbabayev, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və regional mədəniyyət idarələrinin nümayəndələri daxildir.

Hər nümayişdən sonra tamaşalar müzakirə olunub. Kollektivlərə oynanılan tamaşalarda görülən kiçik qüsurların düzəldilməsi, səhnə mədəniyyəti, jestlər, mimikalar, səsləndirmə və hərəkətlərilə bağlı tövsiyələr verilib. Xalq teatrları kollektivlərinin rejissor, bədii rəhbər və üzvləri həvəskar teatr kollektivlərinə göstərilən qayğı və diqqətə, festivalın təşkilinə, həmçinin peşəkarlıqlarının artırılması üçün dəstəyə, ustad dərslərinə görə təşəkkürlərini bildiriblər.

## Kiyevdə Nəsiminin heykəlinin ucaldılmasına dair rəsmi qərar verilib

Kiyev Şəhər Dövlət Administrasiyası Azərbaycanın mütəfəkkir şairi, xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş İmadəddin Nəsiminin heykəlinin ucaldılmasına dair rəsmi qərar verib.



Dövlət Administrasiyasından bildiriblər ki, Kiyevdə mərkəzi parkların birində İmadəddin Nəsiminin heykəlinin ucaldılmasına dair qərar Azərbaycanın Ukraynadakı səfirliyinə təqdim olunub.

Qeyd edək ki, ölkəmizin səfirliyinin təşəbbüsü ilə ucaldılan heykəlin müəllifi Ukraynanın Xalq rəssamı, tanınmış heykəltəraş həmyerlimiz Seyfəddin Qurbanovdur. Tuncdan hazırlanan heykəlin hündürlüyünün 5 metrə yaxın olacağı nəzərdə tutulur.

## Xalçaşünaslığa dair məruzə dinlənilib

Aprelin 3-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin iclasında "Azərxalça" ASC-nin rəhbəri, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Xalçaşünaslıq sektorunun müdiri, professor Vidadi Muradov "Müasir Azərbaycan xalçaşünaslığı: nailiyyətlər və perspektivlər" mövzusunda elmi məruzə ilə çıxış edib.

Məruzəçi bildirib ki, "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"na müvafiq olaraq xalçaşünaslıq elminin müstəqil, konseptual və fundamental şəkildə formalaşması, bu istiqamət üzrə elmi ixtisaslı kadrların hazırlanması məqsədilə AMEA Rəyasət Heyətinin müvafiq qərarı ilə Arxeologiya və Etnoqrafiya İnstitutunun nəzdində xalçaşünaslıq sektoru yaradılıb. Azərbaycan xalçaçılıq sənəti tarix, etnoqrafiya, iqtisadiyyat, sənətşünaslıq, folklor, etnobotanika və digər elmlərin kontekstində praktik və nəzəri materiallar əsasında öyrənilir.

Sektorda AMEA-nın Botanika İnstitutunun əməkdaşları ilə birlikdə "Azərbaycanın boyaqçılıq tarixi" mövzusunda tədqiqat işləri aparılıb.

Alim vurğulayıb ki, elmi ədəbiyyatlarda Qarabağ və yaxud Təbriz qrupunun tərkibində tədqiq olunan Naxçıvan xalça və xalça məmulatları yenidən araşdırılıb, Lənkəran-Astara bölgəsində xalçaçılıq ənənələri öyrənilib. Qeyd edilib ki, bölgədə toxunan xalçalar bədii və texniki cəhətdən əsasən Cənubi Azərbaycan və Qarabağ xalçaçılıq ənənələrini əks etdirir.

# Aprel döyüşləri tarixi qələbəmizdir



Qazax şəhərində Aprel zəfərinin üçüncü ildönümünə həsr olunmuş "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir" devizi altında hərbi-vətənpərvərlik tədbiri keçirilib.

Müdafiə Nazirliyinin və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə gerçəkləşən tədbirdə Aprel şəhidlərinin valideynləri, ailə üzvləri, döyüşlərdə yaralanaraq sağlamlıqlarını itirən əsgər və zabitlər, Bakıdan, qonşu rayonlardan gəlmiş Qarabağ müharibəsi veteranları iştirak ediblər.

Heydər Əliyev adına parkda keçirilən hərbi şöhrət bayramında hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdikdən sonra Üzeyir Hacıbəylinin "Cəngi" musiqisinin sədaları altında "Aprel zəfəri - 2016" ədəbi-musiqili-xoreoqrafik kompozisiya təqdim olunub.

Aparıcılar – Xalq artisti Pərvanə Qurbanova və Əməkdar incəsənət xadimi Abdulla Qurbani Aprel zəfərinin yeni hərb tariximizdə mühüm yer tutduğunu, Prezident, Ali Baş Komandan İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Aprel döyüşlərinin bizim şanlı tarixi qələbəmiz olduğunu nəzərə çatdırıblar. Aprel zəfərinə həsr edilmiş mahnılar, hərbi marşlar və rəqslər ifa edilib.

Aprel döyüşlərində, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında və keçən ilin mayında Naxçıvan Muxtar Respublikasında uğurlu əks-hücum nəticəsində strateji yüksəkliklərin nəzarətə götürülməsində müstəsna xidmətləri olmuş hərbi hissələrin döyüş bayraqları meydana gətirilib.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Müdafiə Nazirliyinin idarə rəisi, general-mayor Rasim Əliyev və digər çıxış edənlər vurğulayıblar ki, son illər Ali Baş Komandan, Prezident İlham Əliyevin diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində çox mühüm işlər görülüb.

Tədbirdə Şəmkir hərbi birliyinin hərbi qulluqçuları öz məharətlərini nümayiş etdirib, incəsənət ustaları Vətəni, Azərbaycan Ordusunu tərənnüm edən konsert proqramı ilə çıxış ediblər. Aprel döyüşlərinin Qazax rayonundan olan ölməz qəhrəmanları – şəhid kapitan



Mühüd Orucov, baş leytenant Elvin Namazov və əsgər Orxan Əliyevin xatirəsinə məşəllər yandırılıb.

## Xətai Sənət Mərkəzi rəsm müsabiqəsi elan edib

Bakıdakı Xətai Sənət Mərkəzi "Nəsimi ili" çərçivəsində "Azərbaycanım" adlı ikinci respublika uşaq rəsm müsabiqəsi elan edib. Müsabiqə Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Təhsil Nazirliyinin Respublika 2 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti və Rəssamlar İttifaqı ilə birgə keçirilir.

Mərkəzin direktoru Zahid Əvəzovun sözlərinə görə, müsabiqədə iştirak etmək istəyən 5 yaşdan 17 yaşa qədər uşaqlar, ad və soyad, təvəllüd, əlaqə nömrəsi, oxuduğu məktəb və ya təsviri sənətlə məşğul olduğu tədris mərkəzinin adını qeyd etməklə, ən çoxu 3 rəsmin fotosunu aprelin 30-dək Xətai Sənət Mərkəzinin "Whatsapp" nömrəsinə (+99451 310 74 01) göndərməlidir. Seçim iki yaş kateqoriyası üzrə (12 yaşa qədər və 12-17) aparılacaq.

# İsmayıl Şıxlının 100 illiyi ilə əlaqədar tədbirlər planı təsdiq olunub

əvvəli səh. 1-də



May ayında Azərbaycan Dövlət Akademik Filarmoniyasında İsmayıl Şıxlının yubileyinə həsr olunmuş təntənəli gecə gerçəkləşəcək.

Yubiley ilində Mədəniyyət Nazirliyinin dəstəyi ilə yazıçının kitabının nəşri, həmçinin Milli Kitabxana və nazirlik tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "İsmayıl Şıxlı. Biblioqrafiya" kitabının çap olunması və təqdimatı, "Xalq yazıçısı İsmayıl Şıxlı - 100" mövzusunda kitab sərgisinin təşkili nəzərdə tutulur.

Tədbirlər planında Azərbaycan Respublikasının Avstriya, Fransa və Özbəkistandakı səfirliklərinin tabeliyində fəaliyyət göstərən mədəniyyət mərkəzləri tərəfindən həmin ölkələrdə İsmayıl Şıxlının yubileyinə həsr olunmuş müxtəlif tədbirlərin keçirilməsi də yer alıb.

Mədəniyyət Nazirliyi, Cəlil Məmmədquluzadənin Bakıdakı ev-muzeyi və "Qazax Xeyriyyə Cəmiyyəti" İctimai Birliyinin təşkilatçılığı ilə "Xalq yazıçısı İsmayıl Şıxlı – 100" adlı konfransın keçirilməsi planlaşdırılır.

Bakı Xoreoqrafiya Akademiyasında "Xalq yazıçısı İsmayıl Şıxlının yaradıcılığında tarixilik və millilik" mövzusunda elmi sessiyanın təşkili, Təhsil Nazirliyinin müəssisələrində yubileylə bağlı elmi konfrans, simpozium və seminarların keçirilməsi, məktəb kitabxanalarında İsmayıl Şıxlının bədii əsərlərinin oxusu və müzakirəsinin təşkili nəzərdə tutulur.

Yubiley ili ərzində Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda, birliyin bütün filiallarında yazıçının anım gecələri keçiriləcək, AYB-nin mətbuat orqanlarında ədibin ömür yolu və yaradıcılığı ilə bağlı silsilə yazılar dərc olunacaq.

# Əməkdaşlığa dair memorandum imzalanıb

Aprelin 3-də Azərbaycan Milli Konservatoriyası ilə Beynəlxalq Muğam Mərkəzi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Tədbiri Azərbaycan Milli Konservatoriyasının (AMK) prorektoru Lalə Hüseynova açaraq iki təşkilat arasında əməkdaşlığın xeyli əvvəl başladığını qeyd edib. Bildirib ki, konservatoriyanın müəllimləri, muğam ifaçıları, tələbələri Beynəlxalq Muğam Mərkəzinin tədbirlərində fəal iştirak edirlər: "Biz son zamanlar Muğam Mərkəzi ilə birgə dəyirmi masalar, layihələr həyata keçirmişik. Bu dəyirmi masalarda alimlərin iştirakı ilə çox maraqlı müzakirələr aparılıb. Bu əməkdaşlıq müxtəlif müstəvilərdə davam etməlidir. Birgə konsertlərin, festivalların keçirilməsi və digər tədbirlərin təşkili nəzərdə tutulur. Bu, çox böyük maarifləndirmə işidir. Muğamın geniş kütlələr arasında yayılmasında, təşviqində Beynəlxalq Muğam Mərkəzinin rolu çox böyükdür. Bu baxımdan davam edən əməkdaşlığın memorandumla rəsmiləşdirilməsi böyük əhəmiyyət daşıyır".



AMK-nın rektoru, Xalq artisti Siyavuş Kərimi bildirib ki, memorandumun məqsədi iki qurum arasında qarşılıqlı faydalı mədəni əlaqələrin möhkəmləndirilməsi, yeni yaradıcılıq mühitinin formalaşdırılmasıdır.

Beynəlxalq Muğam Mərkəzinin direktoru, Xalq artisti Murad Hüseynov birgə əməkdaşlığın bundan sonra da mədəniyyətimizin, musiqimizin inkişafına töhfə verəcəyini söyləyib.

Əməkdaşlıq haqqında memorandumun imzalanmasından sonra tədbir konsert proqramı ilə davam edib.

# Vaqif Mustafazadənin əsərləri səsləndirilib

Beynəlxalq Muğam Mərkəzində bəstəkar, pianoçu, caz-muğamın yaradıcısı, Əməkdar incəsənət xadimi Vaqif Mustafazadənin (1940-1979) anadan olmasının 79-cu ildönümünə həsr edilmiş konsert keçirilib.



Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Beynəlxalq Muğam Mərkəzinin birgə təşkilatçılığı ilə gerçəkləşən gecədə V.Mustafazadə adına 2 nömrəli Uşaq incəsənət məktəbinin müəllim və şagirdlərinin ifasında maraqlı konsert proqramı təqdim olunub.

Konsertdə caz orkestrinin müşayiəti ilə caz, reqtaym, bluz janrlarında əsərlər ifa edilib. Bununla yanaşı, məktəbin şagirdlərinin musiqi mövzusunu əks etdirən rəsmlərindən ibarət sərgi də təşkil olunub.

Konsert tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# Ağa Xan Fondunun ilk musiqi mükafatına Firəngiz Əlizadə layiq görülüb

## Lissabonda keçirilən mərasimdə azərbaycanlı bəstəkara mükafatı Portuqaliya Prezidenti təqdim edib

1967-ci ildə yaradılmış Ağa Xan Fondu ("Aga Khan Foundation") bu il ilk dəfə olaraq musiqi sahəsində beynəlxalq mükafat ("Aga Khan Music Award") təsis edib. Bəstəkarlıq sahəsində (yaradıcılıq – creation) mükafatın ilk laureatı azərbaycanlı bəstəkar və pianoçu, 2007-ci ildə UNESCO-nun "Sülh artisti" ("Artist for Peace") adına layiq görülmüş Firəngiz Əlizadə olub.



Azərbaycan Bəstəkarlar İttifaqının mətbuat xidmətindən verilən məlumata görə, Portuqaliyanın paytaxtı Lissabonda 2019-cu ilin laureatlarının təltif edilməsinə həsr olunmuş təntənəli tədbir keçirilib.

Konsert proqramından sonra bəstəkarlıq sahəsində yegənə mükafatı Firəngiz Əlizadəyə Portuqaliya Prezidenti Marselu Rebelu da Soza, fondun təsisçisi Əlahəzrət Ağa Xan və Şahzadə Əmin təqdim edib.

"Aga Khan Foundation" Portuqaliya və Böyük Britaniya vətəndaşı olan tanınmış iş adamı Şah Kərim Hüseyn (Ağa Xan) tərəfindən təsis edilib. Fondun 20-dək ölkədə nümayəndəlikləri fəaliyyət göstərir.

Fondun press-relizində Firəngiz Əlizadənin müasir akademik musiqi sahəsində görkəmli nailiyyətləri qeyd edilir. Vurğulanır ki, onun yaradıcılığında Şərq incəsənətinin mənəvi zənginliyi və yüksək intellektualizmi cəlbedici qüvvə ilə əks olunub. Sevindirici haldır ki, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadənin yaradıcılığı dünya musiqi prosesinə geniş inteqrasiya olunub, dünyanın konsert səhnələrində Hilary Hahn, Yo-Yo Ma, "Kronos Quartet", "Berliner Philharmoniker", "Royal Concertgebouw Orkestra", "New Juilliard Ensemble" kimi aparıcı solistlər və kollektivlər tərəfindən tez-tez ifa olunur.

Laureatların təltif edilməsi mərasimi və konsert Portuqaliyanın kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.

# Onu "Şərq musiqisinin incisi" adlandırırdılar...

Aprelin 3-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində görkəmli xanəndə, Xalq artisti Seyid Şuşinskinin 130 illiyi ilə bağlı tədbir keçirildi.





Tədbiri muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq dövlət başçısının müvafiq sərəncamına əsasən muğam ustadının yubileyinin ölkəmizdə silsilə tədbirlərlə qeyd olunduğunu dedi, sənətkarın həyat və yaradıcılığı barədə danışdı.

Bildirdi ki, Seyid Şuşinski (Mir Möhsün Seyid İbrahim oğlu) 12 aprel 1889-cu ildə indiki Füzuli rayonunun Horadiz kəndində dünyaya göz açıb. Erkən çağlardan xalq şənliklərində çıxış edib. Peşəkar xanəndə kimi tanınmasında Azərbaycan xanəndəlik sənətinin beşiyi olan Şuşa mühitinin böyük rolu olub. İki il Şuşada Mir Möhsün Nəvvabın məktəbində oxuyub. Onun xanəndə kimi yetişməsində Cabbar Qaryağdıoğlunun böyük təsiri olub.

Muzeyin Xalq çalğı alətləri şöbəsinin müdiri Təranə Zeynalova Seyid Şuşinskinin yaradıcılıq yolu, Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında xidmətləri haqqında geniş məlumat verdi. Onun çıxışı muzeyin arxiv materialları əsasında hazırlanmış slayd-şou ilə müşayiət olundu.

Xalq artisti Canəli Əkbərov sənətkarın ömür yolundan danışdı. Qeyd etdi ki, Seyid Şuşinski 1911-ci ilədək Şuşada yaşayıb. Şəhərin toy məclislərinin birində Məşədi Cəmil Əmirovla (bəstəkar Fikrət Əmirovun atası) tanış olub. O, S.Şuşinskinin ifasını bəyənir və özü ilə Gəncəyə aparır. Çox keçmir Seyid gəncəlilərin sevimlisinə çevrilir. Sonra Tiflisə köçür və 1919-cu ilədək orada yaşayır, şəhərin mədəni həyatında yaxından iştirak edir.

Əməkdar artist Süleyman Abdullayev çıxışında S.Şuşinskinin sənətkarlığından söz açdı. Bildirdi ki, görkəmli xanəndə "Çahargah"ı böyük məharətlə oxuyub, bu muğama "Mayə" əvəzinə "Mənsuriyyə"dən başlayarmış. Buna görə də C.Qaryağdıoğlu S.Şuşinskini "Şərq musiqisinin incisi" adlandırıb.

Tədbirdə daha sonra xalq artistləri Vamiq Məmmədəliyev, Ramiz Quliyev, əməkdar incəsənət xadimləri Nazim Kazımov, Arif Əsədullayev və başqaları xanəndənin bənzərsiz sənətkarlığından söz açdılar. Vurğulandı ki, Qarabağ xanəndəlik məktəbinə mənsub qüdrətli sənətkar qədim muğam ənənələrimizi layiqincə qoruyub yaşadıb. İstedadlı musiqiçilərin hazırlanması sahəsində də təqdirəlayiq fəaliyyət göstərən Seyid Şuşinski 1965-ci ildə Bakıda vəfat edib.

Çıxışlardan sonra Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim musiqi alətləri ansamblının solisti, Xalq artisti Teyyub Aslanov, Muğam televiziya müsabiqəsinin laureatı Nüşabə Kərimli (xanəndə), Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Məftun Səfərli (xanəndə), Nicat Umbayev (tar), Abbas Abdullayev (kamança), Fərid İsgəndərov (tar) və Hikmət Abdullayevin (kamança) iştirakı ilə konsert proqramı təqdim edildi.

**Savalan FƏRƏCOV**

# "Prometey Bakıda"

Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Prometey Bakıda" adlı konsert proqramı təqdim olunub. Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri tərəfindən İqor Stravinskinin "Simurq quşu" süitası (1919) və Aleksandr Skryabinin "Prometey" ("Alov poeması") əsərləri səsləndirilib.



Solisti Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının prorektoru, Xalq artisti, professor Yeganə Axundova olan konsertdə Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbəri – Xalq artisti Gülbacı İmanova) çıxış edib.

Qeyd edək ki, İ.Stravinskinin "Simurq quşu" süitası Bakıda nadir hallarda səslənir.

Konsertdə A.Skryabinin "Prometey" əsərinin ifası zamanı piano, orkestr, xorun ifası və işıqların ahəngi ecazkar təəssürat doğurub. Pianoçunun peşəkar ifası dinləyicilərin zövqünü oxşayıb. Azərbaycan Dövlət Akademik Filarmoniyası səhnəsinin divarlarında əks olunan alovun və şimşəyin çaxmağı auditoriya tərəfindən maraqla qarşılanıb.

# Autizmdən əziyyət çəkən uşaqlar üçün konsert

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Xəzər rayonu 1 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində 2 aprel – Dünya autizm maarifləndirmə gününə həsr olunmuş tədbir keçirilib.

Baş idarədən bildirilib ki, çıxışçılar autizmdən əziyyət çəkən uşaqlara, onların valideynlərinə dəstək olmaq, aktual problemlərinin öyrənilməsi və müvafiq yardımın göstərilməsi, cəmiyyətə inteqrasiyasına yardım etmək və cəmiyyətin diqqətini bu məsələlərə yönəltmək üçün belə tədbirlərin əhəmiyyətini vurğulayıblar.

Müğənnilərin ifasında musiqi nömrələri təqdim edilib. Konsert uşaqlarda xoş təəssürat yaradıb.

# "İslam sivilizasiyası və elm: tarix və müasirlik"

Azərbaycan İlahiyyat İnstitutu (AİI) və AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının birgə təşkilatçılığı ilə "İslam sivilizasiyası və elm: tarix və müasirlik" mövzusunda konfrans keçirilib.

İnstitutun rektoru Ceyhun Məmmədov müasir dövrdə ilahiyyat sahəsində görülən işlər, qarşıda duran hədəflər haqqında məlumat verib.

AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli elmi tədqiqat müəssisələrində gənc alimlərin elmi axtarışlara qoşulduqlarını xüsusi vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin ictimaiyyətlə əlaqələr və ailə problemləri üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Qəmər Cavadlı İslam və elmin qarşılıqlı münasibətlərindən danışıb.

Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent Famin Salmanov gənclərin elmə cəlb olunması, ölkəmizdə ziyalı potensialının artırılması məqsədilə görülən işlərdən bəhs edib.

Sonra fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədovun "Elm anlayışı: müasir Qərb və müsəlman nöqteyi-nəzərlərinin təhlili", tarix üzrə fəlsəfə doktoru Elnur Həsənovun "Gəncə şəhərinin tarixi-dini memarlıq abidələri multikulturalizm və tolerantlıq ənənələrinin mühafizəçisidir", tarix üzrə fəlsəfə doktoru Sevinc Nəsirovanın "İslam dininin təbliği sənət nümunələrinə təsiri", Nərgizxatun Həsənovanın "Beytül-hikmət və Darül-hikmət nümunəsində islamda elmi və fəlsəfi institutlar", Zeynəb Həcəmovanın "İslam dünyasında elm və fəlsəfə məktəbləri" mövzularında məruzələri dinlənilib.

**Tofiq İsmayılov – 80**

# İstəklərini lentlərə köçürən rejissor

**Kino xarakterlər toplusudur. Ekran əsərlərində görüb, izlədiyimiz fərqli xarakterlər isə rejissorların təfəkkürünün məhsuludur. Azərbaycan kinosunda tipik xarakterlər yaradan, fərqli dəst-xətti ilə seçilən istedadlı rejissorlarımızdan biri də Xalq artisti, professor Tofiq İsmayılov idi.**

Ömrü boyu yaradıcılığında sənətin gözəlliyini və həyat üçün vacibliyini vurğulayan rejissor Azərbaycanda müəllif kinosunu yaradanlardandır. Tofiq müəllimin yaradıcılığında daha çox müasirlərinin həyatını ekranlara gətirdiyini görürük. Bu da təsadüfi deyil. Gənclərin, yeniyetmələrin və uşaqların dünyagörüşünün formalaşması, yüksək mənəvi dəyərlərə sahib olması, intellektlərinin ali səviyyədə inkişaf etməsi onu narahat edən əsas amil idi. Buna görə də milli-mənəvi dəyərlərə, soy-kökə, böyük-kiçiyə hörmət onun filmlərinin leytmotividir. Kino yaradıcılığına "Şəhərimizin daşları" (1968) sənədli filmi ilə başlayan rejissor 11 bədii filmə quruluş verib, 3 filmdə aktyor kimi çəkilib, 10-dan artıq sənədli film ekranlaşdırıb.

Rejissorun yaradıcılığında diqqətçəkən məqamlardan biri də filmlərinin bir çoxunun musiqili olmasıdır. Tofiq müəllimin qızı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aygül Hüseynova atası haqqında xatirələrini bölüşərkən deyir: "Atam musiqini çox sevirdi. Yaradıcılığı boyu müxtəlif bəstəkarlarla çalışmışdı. "Musiqi müəllimi" filminin musiqisini yazmağı bəstəkar Tofiq Quliyevə həvalə etmişdi. Onlar film üzərində işləyərkən atam tez-tez bəstəkarın işinə müdaxilə edərək, bəlkə musiqinin bu yerində belə etsək daha yaxşı olar deyə istəklərini bildirir. Tofiq Quliyev də hər dəfə atamla razılaşaraq deyir ki, Tofiq, axı sənin musiqi təhsilin yoxdur necə bilirsən ki, burda bu notdan istifadə etmək lazımdır. Onun filmoqrafiyasında 10-a yaxın musiqili film var. Bunlardan "Oxuyur Müslüm Maqomayev", "Maestro", "Özüm və zaman haqqında" və s. sənədli, "Gilas ağacı", "Bizim küçənin oğlanları", "Mən nəğmə qoşuram" , "Əzablı yollar" və s. bədii filmlərinin adlarını çəkmək olar.

Atam həmişə qeyd edirdi ki, biz azərbaycanlılar şeirə, musiqiyə dəyər verən xalqıq. Buna görə də hər bir evdə, ailədə musiqi aləti olmalıdır. Çünki zövqlü musiqi təfəkkürü formalaşdıran, mənəviyyatı ülvi hislərlə zənginləşdirən amildir. Mən və bacılarım Sevinc, Vəfa fortepiano üzrə musiqi təhsili almışıq və üçümüz də atamın filmlərində çəkilmişik. Sevinc "Gilas ağacı"nda Nigar rolunu oynayıb, Vəfa "Çarvadarların izi ilə" filmində Mələknisə rolunda çıxış edib, mən isə "Xüsusi vəziyyət", "Yay günlərinin xəzan yarpaqları" filmlərində çəkilmişəm. Atam bizə qarşı çox diqqət və qayğı ilə yanaşırdı, ailəsinə çox bağlı insan idi. Düşünürəm ki, biz xoşbəxt uşaqlar olmuşuq ki, belə ailədə doğulmuşuq. Anam Səidə xanım 30 ildən artıq uşaq həkimi işləyib. Valideynlərim arasında olan xoş münasibətlər bizdə həmişə xoşbəxtlik hissi yaradırdı. O, nəvələrini də həddən artıq sevirdi. Biz hamımız atamla fəxr edirik ki, onun övladlarıyıq və belə bir ailədə böyümüşük".



"Musiqi müəllimi" filminin direktoru olmuş Arif Səfərov müsahibəsində söyləyir ki, "Moskvada, Dövlət Kinematoqrafiya Komitəsində Tofiq müəllimi sevir, ona inanır, hörmət edirdilər. Buna görə də Mərkəzi televiziyanın (Moskva) sifarişi ilə çəkilən filmlərin bir çoxunu ona verirdilər. Tofiq müəllim olduqca istedadlı, savadlı və tələbkar insan idi. Onunla işləmək məsuliyyətli olduğu qədər də çətin idi. Bununla belə, biz onunla işləməkdən zövq alırdıq. Çünki Tofiq müəllim əsl kino adamı idi. Bu məsuliyyətli insandan öyrənməli çox şey vardı".

Onun həyatsevərliyi və insanlara olan xoş diləkləri filmlərində əksini tapıb. Novator rejissor və tələbkar pedaqoq kimi tanıdığım Tofiq İsmayılovun savadlı, məzmunlu mühazirələri, sənətə olan sevgisi, daim aşıb-daşan həyat eşqi tələbəsi olaraq məni həmişə düşündürüb. Bu məqaləni yazmağım isə Tofiq müəllimin həyat yoluna bir qədər ətraflı nəzər salmağıma səbəb yaratdı. Aygül xanımla söhbət əsnasında isə Tofiq İsmayılovun filmlərində əksini tapan ailə sevgisinin, insanlara hörmətin, sevgiyə dəyərin, ziyalılığa meylin haradan qaynaqlandığı bir daha bəlli oldu.

Aygül xanımın dilindən: "Atam 1939-cu il aprelin 6-da Bakıda dünyaya göz açıb. Babam Məşədi Hüseyn dövrünün sayılıb-seçilən kişilərindən olub. Ordubad şəhərində doğulub-böyüyən Məşədi Hüseyn rus, fars, ərəb dillərini mükəmməl bilib, həmin illərdə müfəttiş vəzifəsində çalışıb. Məşədi Hüseynin atası Hacı Rəsul kişi Ordubadda böyük torpaq sahələrinə sahib olan, dövrünün hörmətli adamlarından olub. 1920-ci ildə Azərbaycanda baş verən inqilabi proseslərin xoşagəlməz nəticələri, qadası-qovğası atamgilin ailəsindən də yan keçməyib. Bolşeviklər Hacı Rəsulu, onun qardaşlarını və oğlu Məşədi Hüseyni Sibirə sürgün ediblər. Onlardan yalnız Məşədi Hüseynə Azərbaycana qayıtmaq nəsib olub. Sürgündən qayıtdıqda ailəsinin Bakıya köçdüyünü eşidən Məşədi Hüseyn onların ardınca Bakıya gəlib, beləcə İsmayılovlar ailəsi Bakıda məskunlaşıb. 3 qız, 5 oğul sahibi olan Məşədi Hüseynin kitablara böyük sevgisi olub. Buna görə də o, evində böyük bir kitabxana yaradıb. Övladlarına daim mütaliə etməyi, cəmiyyətdə şəxsiyyətini təsdiqləyən insan olmağı tövsiyə edib. Uşaqların hamısı müxtəlif ali təhsilə, əksəriyyəti isə həkimlik peşəsinə yiyələnib. İncəsənət və ədəbiyyatla maraqlanan isə təkcə atam olub. O, Bakıda 190 saylı şəhər orta məktəbini bitirdikdən (1958) sonra M.Əliyev adına Teatr İnstitutunun Aktyorluq fakültəsinə daxil olub, sonra isə Rejissorluq fakültəsində (1962-1968) təhsilini davam etdirib. Həsən Məmmədov, Rafiq Əzimov, Hacımurad Yagizarov və digər məşhur aktyorlarla bir kursda oxuyub. Xalq artisti, görkəmli teatr xadimi Məhərrəm Haşımovdan, professor Əşrəf Quliyevdən aktyor sənətinin sirlərini öyrənib. İnstitutu bitirdikdən sonra Moskvada ikiillik rejissorluq kursunu, dünya şöhrətli kinorejissor Andrey Tarkovskinin emalatxanasını bitirib. Görkəmli rejissor, pedaqoq Adil İsgəndərovla tanışlığı sonralar dostluğa, daha sonra isə ata-oğul münasibətinə çevrilib. Bu isə onun həyat və yaradıcılığında əsaslı və mühüm dəyişikliklərə səbəb olub".

Aygül xanım onu da qeyd edir ki, atasının sənətə hələ uşaq yaşlarından marağı olub: "Dərslərdə, dram dərnəklərində fəal iştirak edib, məktəblərarası keçirilən şənliklərə və yarışlara qatılıb. Orta məktəbdə onlara ədəbiyyat fənnini tədris edən Zərbəli Səmədov onda şeirə, sənətə böyük maraq yaradıb və həmin illərdə teatr cəmiyyətində çalışan, sonralar kinorejissor kimi məşhurlaşan Arif Babayevin yanına göndərib. Arif müəllim Tofiq İsmayılovu dinlədikdən sonra dərnəyə qəbul edib və ona nəzm əsərlərinin fəlsəfi dərinliklərini, deyiliş qaydalarını, səhnə danışığını öyrədib. Həmin illərdə Gənc Tamaşaçılar Teatrında çalışan Əməkdar incəsənət xadimi, tanınmış rejissor Zəfər Nemətov atamı tamaşalarda görüb və onu 1954-cü ildə teatrda işləməyə dəvət edib. Səhnəyə, sənətə hədsiz marağı olan atam kütləvi səhnələrdə və digər rollarda çıxış edib".

Daim yaradıcılıq axtarışlarında olan Tofiq İsmayılovun sənətə olan sevgisi onu televiziyaya da gətirib. O, Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində rejissor köməkçisi (1960-1961), rejissor (1962-1967) işləyib.

Sənət haqqında olan maraqlı deyimlərdən biri də budur ki, sənətkar insanları öz daxilinə yönəldir və qəlbin hamı üçün ümumi olan sirlərini insanlara açıb göstərir. Həyat hadisələrinin mahiyyətini, insani münasibətlərin vacibliyini fərqli dəst-xəttində vurğulayan Tofiq İsmayılov yaşam üçün vacib nüansları tamaşaçılara göstərməyi bacardı.

"Azərbaycanfilm" kinostudiyasında rejissor köməkçisi, bədii təlimlər rejissoru (1967-1968) kimi işləyən Tofiq müəllim Moskvada ikiillik kurslarını bitirdikdən sonra 1988-ci ilədək "Azərbaycanfilm" kinostudiyasında bədii filmlərin quruluşçu rejissoru olub. Hətta bir müddət kinostudiyanın nəzdində fəaliyyət göstərən aktyorluq studiyasının bədii rəhbəri olub.

O, eyni zamanda pedaqoji fəaliyyət göstərib, kinonun sirlərini gənc nəslə tədris edib. 1971-ci ildən Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) Rejissorluq kafedrasında müəllim kimi çalışıb, kafedranın müdiri (1988-1994) olub. Onlarla tələbəyə kino sənətinin sirlərini öyrədib, zəkasının nurundan onların həyat yoluna işıq saçıb. Heç də təsadüfi deyil ki, ustad sənətkar zəngin peşə bilgisinə görə Türkiyənin Memar Sinan Universitetinə dəvət olunub (1994-2006), universitetin professoru olub, bir qədər sonra İstanbulun Böyükşəhər Bələdiyyəsində mədəniyyət işləri üzrə müşavir işləyib. 2007-ci ildə yenidən ADMİU-da kino sənətini tədris edib.

Tofiq müəllim ədəbi-publisistik fəaliyyət də göstərib. 1962-ci ildə "Göyərçin" jurnalında çap olunan "Ağ dəsmal" hekayəsi ilə ədəbi yaradıcılığa başlayan müəllif bir sıra əsərlər, o cümlədən 100-ə yaxın elmi-publisistik məqalə yazıb. "Müasir Azərbaycan kinosunda tipik xarakter" mövzusunda namizədlik dissertasiyası yazıb. "Türk cümhuriyyətlərinin sinema tarixi" (2001) üççildlik fundamental ensiklopediyanın müəllifi olan professorun əsərləri bir sıra xarici dillərdə nəşr olunub. Sənətdən, yaradıcılıqdan doymayan həyatsevər insan 2016-cı ilin 25 martında uzunsürən xəstəlikdən sonra dünyasını dəyişdi. Allah rəhmət eləsin.

Aygül xanım onu da qeyd edir ki, Türkiyədə olan dostları atasının əziz xatirəsinə ehtiram olaraq bir neçə dəfə anım gecəsi keçiriblər: "İstanbulun Böyükşəhər Bələdiyyəsi və Memar Sinan Universitetinin kino-televiziya bölümünün birgə təşkilatçılığı ilə keçirilən anım gecəsi təşkil olunanda biz ailəliklə həmin tədbirə dəvət olunduq. Bir il sonra isə Türk Dünyası Qəzetçilər Federasiyasının təşəbbüsü ilə Türk dünyası sənədli film festivalı keçirildi. Festivalda hər il bir məşhur insanın adına əsas mükafat təsis olunur ki, 2017-ci ildə də atamın adına mükafat verildi. İlk təqdimat İstanbulda keçirildi. Tədbir növbəti dəfə Bakıda oldu. Tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral da iştirak etdi. Festivalda Tofiq İsmayılova həsr olunan "Nəslim" adlı kitabın təqdimatı da oldu. Növbəti layihə isə atamın 80 illiyinə həsr etdikləri sənədli filmlə davam edəcək. Bu filmin çəkilişləri yay aylarında Bakıda reallaşacaq. Bütün bunlar atamın dostlarının və kinosevərlərin onun yaradıcılığına və xatirəsinə olan hörmət və ehtiramın göstəricisidir".

Ömrü boyu sənətin keşiyində duran, həyatın gərəkli, vacib nüanslarını filmlərində vurğulayan Tofiq İsmayılov, sözün əsl mənasında, nümunəvi vətəndaş, ibrətamiz ömür-gün yoldaşı, qayğıkeş ata və görkəmli sənətkar idi. Bu kimi örnək timsallı ömür yolu olan insanların, unudulmaz sənətkarların həyat tarixçəsi isə biz tamaşaçı və oxucular üçün hər zaman maraqlı və qiymətlidir.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

---

# Bu günümüzdə nəyə baxıb güləK?

*əvvəli səh. 1-də*

Bu gün gənc, orta və artıq yaşlı nəslin nümayəndələri komediyalar yazırlarmı, teatrlara təqdim olunurmu, bəyənilirmi, yaxud bəyənilən əsərlər hansı səbəbdən səhnə üzü görmür? Hər halda teatr rejissorları ilə danışanda illərdir ki, eyni gileyləri eşidirik: yazmırlar, ya da yazdıqları çox zəifdir...

Lakin teatrda təkcə melodrama, faciəyə, yaxud klassik satiraya deyil, həm də müasir insanları düşündürərək güldürən xoşniyyətli, yumşaq islahedici gülüşlə qarşılaşmaq istəyən tamaşaçı aktyora yox, qəhrəmanların düşdüyü situasiyaya ürəkdən gülmək istəyirsə, onda necə olsun? Bu məqamda zərb-məsələ çevrilmiş bir ifadə yada düşür:

### Yenilik yaxşı unudulmuş köhnəlikdir

Bu gün teatrların repertuarında Mirzə İbrahimovun, Sabit Rəhmanın, Şıxəli Qurbanovun, Salam Qədirzadənin, Əliağa Kürçaylının, Məhərrəm Əlizadənin pyeslərinə rast gəlinmir. Sovet dövrü ədəbiyyatına bələd olmayan adama elə görünə bilər ki, Mirzə Fətəlidən, Mirzə Cəlildən sonra bir neçə onilliklər Azərbaycanda komediya yazılmayıb. Çünki illərdir ki, bu müəlliflərin pyesləri tamaşaya qoyulmur. Nəzərə alsaq ki, çox az adam pyes mütaliə etməyə meyil göstərir, bir neçə ildən sonra adını çəkdiyimiz və çəkmədiyimiz bir sıra müəllifləri sırf peşəyönümü baxımından teatra və ədəbiyyata bağlı olanlardan savayı kimsə tanımayacaq.

Məsələn, götürək Mirzə İbrahimovu. Orta məktəblərin ədəbiyyat tədris planında ayrı-ayrı siniflərdə onun "Azad" hekayəsi, "Gələcək gün" və "Böyük dayaq" romanı keçilir. Yeri gəlmişkən, "Böyük dayaq" romanı artıq 11-ci sinfin proqramından çıxarılıb, dərslikdə Mirzə İbrahimov haqqında verilən təxminən birsəhifəlik yazıda onun pyes qələmə alması barədə heç məlumat da verilmir. Sabit Rəhman barədə də həmçinin.



"Xoşbəxtlər" tamaşasından səhnə

Belə çıxır ki, Azərbaycanda bu klassikləri, eləcə də ötən illərdə salonları dolduran duzlu-məzəli komediyaların müəlliflərini tanımayacaq nəsil yetişməkdədir. Oxucu bu yerdə etiraz edib deyə bilər ki, daha bu qədər də yox! Ən azından ona görə ki, "Böyük dayaq", "Ulduz" filmləri bütün telekanallarımızda tez-tez göstərilir. Haqlısınız. Amma siz əminsiniz ki, bütün teleseyrçilər hər hansı filmin, o cümlədən də adını çəkdiyimiz filmlərin hansı roman və ya pyesin əsasında lentə alındığına, ssenari müəllifinin adına diqqət yetirirlər?

Bizim bu mövzuya belə həssas yanaşmağımız gərək təəccüblü gəlməsin.

Məsələ ondadır ki, bu müəllifləri tanımamaq həm də əsl gülüşdən, komediyadan, islahedici zarafatdan uzaq olmaqla nəticələnir. Bu gün az-çox savadı, mütaliəsi olanlar gənclərin nələrə güldüyünə, nəyi "prikol" saydığına, ucuz, mənasız, əttökən gülüşü komediya kimi təqdim edən serialları, proqramları, tamaşa-konsertləri həvəslə gözlədiyinə, bu tipə aid edilən kommersiya filmlərinin kinoteatrlarda nümayişinə, axınına heyrətlənir. Əslində, heyrətlənməyə dəyməz. Çünki tamaşa salonunda, kinoteatrda əyləşib ürəkdən gülmək istəyən, yaşı 15-45 arası olan orta statistik Azərbaycan insanına alternativ komediya təqdim edilmir.

Bəli, o fikirlə də razıyıq ki, sovet dövründə yazılmış, səhnəyə qoyulmuş komediyaların əksəriyyəti zamanın ideoloji tələblərinə uyğun idi, gülüş hədəfi də kommunist ideologiyasının antipod hesab etdikləri idi. Bəlkə də, bu gün S.Rəhmanın "Toy" komediyasını elə ilk quruluşlarda olduğu kimi, özbaşına qərar verən, bürokrat, vəzifəsini öz istəklərinə tabe etdirmiş, inqilabçı olduğu üçün özünü bütün yüksək mərtəbələrə layiq bilən kolxoz sədri Kərəmova gənclərin necə toy tutması əhvalatı kimi səhnələşdirsək, bir qədər çətin görünər. Hərçənd əsərə XXI əsrin pəncərəsindən baxmağı bacaran, 80 ilin komediyasında bu günün nəbzinin vurduğunu hiss edən rejissor bu əsərə də müraciət edə bilər. Kərəmovların bu gün də mövcud olduğunu nəzərə alsaq, yaxın dövr klassikasına müraciət çox ciddi uğur da vəd edə bilər. S.Rəhmanın 2005-ci ildə çapdan çıxmış "Seçilmiş əsərləri"nin I cildinə ön sözündə professor Yaşar Qarayev bu fikirləri əbəs yerə yazmamışdı: "Maraqlıdır, gülüşün hər şeydən ilkinliyi və üstünlüyü kimi bir müstəsnalıq bütünlükdə bizim milli səhnədə də bədii tərəqqiyə xas ənənəvi tarixi "intizamı", "estetik-tipoloji qanunauyğunluğu" pozmuşdur. Burada da məzhəkə faciədən, Mirzə Fətəli Axundov Nəcəf bəy Vəzirovdan əvvəl doğulmuşdur. Milli peşəkar teatrın əsasları hələ XIX əsrdə "Təmsilat"la qoyulmuşdur. Daha sonrakı dövrün – XX əsrin ən tragik monoloqu da səhnədə faciədən yox, məzhəkədən eşidilmişdir – "Ölülər"dən! Müasir Azərbaycan teatrında bu ənənəni klassik səviyyədə qoruyan və irəli aparan Sabit Rəhman oldu".

### Bəs "Xoşbəxtlər" nə vaxt olacaq?

Ötən əsrin 50-ci illərində "Azdrama"da hər nümayişi anşlaq keçən bir ailə məzhəkəsi səhnədə idi ki, adı da "Xoşbəxtlər". Hətta bu tamaşa ilə bağlı gerçək əhvalat da baş verib ki, bu günədək teatr aləmində lətifə kimi dolaşır.

Məmməd Səid Ordubadi ömrünün son illərində şəhərə çox çıxmazmış. Amma aradabir teatra zəng vurub "Qılınc və qələm" romanı əsasında səhnələşdirilmiş tamaşanın oynanılması ilə maraqlanarmış. Lakin onun hər "bu axşam hansı tamaşa var?" sualına bir cavab verərmişlər: "Xoşbəxtlər". Nəhayət, bir gün görkəmli yazıçı dözməyib ikinci sualı verir: "Bəs bizim "bədbəxtlər" nə vaxt olacaq?".

Cavanlara və teatrdan bir qədər uzaq olanlara əsər barədə ötəri məlumat verək ki, "Xoşbəxtlər"in dörd əsas qəhrəmanı var: Mürşid-İnci və Sadıq-Gülər cütlüyü. Tikinti mühəndisi olan kişilər işi, qadınlar isə ailəni vacib bildikləri üçün aralarında narazılıq var. Kişilər çıxış yolu kimi boşanmağa qərar verirlər. Amma sonda…

Birdən hansısa teatr bu gözəl, bir neçə paralel konfliktlə davam edən, xoşbəxt sonluqla bitən bu əsərə bəlkə müraciət edər deyə, marağı azaltmamaq üçün məzmunu danışmırıq. Lakin əsərdən bir sitatı mütləq gətirməliyik ki, "Xoşbəxtlər"in indi də nə qədər aktual olduğu görünsün: "O vaxt elə bilirdim ki, ailə mənə mane olur, irəli getməyə qoymur. Ailəsiz xoşbəxt olaram.



"Kəndçi qızı" tamaşasından səhnə

Halbuki indi başa düşürəm, ailə xoşbəxtliyin ocağı imiş".

Yəni əsas leytmotivi bu ideya olan əsər günümüzlə səsləşmir ki?

### "Yaxşı adam", yoxsa "Kəndçi qızı"?

Mirzə İbrahimovun cəmi iki komediyası var ki, bunlardan biri 1961-ci ildə ("Kəndçi qızı"), o biri də 1963-cü ildə ("Yaxşı adam") ilk dəfə səhnələşdirilib. Maraqlıdır ki, konfliktlərin daha qabarıq verildiyi, sovet dramaturgiyasının nəyə gülməli olduğu daha asanlıqla bilinən "Kəndçi qızı"nın səhnə taleyi daha uğurlu olub və əsər qısa fasilələrlə təxminən otuz il səhnədən düşməyib. Çağdaş Azərbaycan cəmiyyətində kənd-şəhər adamı bölgüsü istər psixoloji, istəsə də sosioloji baxımdan otuz il əvvəlki kəskinliyini və qabarıqlığını itirdiyindən "Kəndçi qızı"nın bugünkü səhnə taleyinin uğurlu olacağı bir qədər şübhəli görünə bilər. Lakin "Yaxşı adam" bir ailədə böyümüş, təhsil almış üç bacının – Töhfə, Qönçə və Zöhrənin həyat yoldaşı seçiminə münasibətinin bənzərsizliyi (çoxbilmiş, çılğın, təmkinli), valideynlərin, xüsusən də ananın qohum nikahına üstünlük verməsi, cavanların müstəqilliyi aşırı sərbəstlik və özbaşınalıq kimi zənn etməsi bu gün də Azərbaycan cəmiyyəti üçün aktuallığını itirməmiş mövzulardır. Çox ola bilsin ki, zamanında "Yaxşı adam"da dramaturji konfliktin bir qədər zəifliyi, yaxud səhnə həllində hansısa məqamın düzgün vurğulanmaması bu pyesin səs salan tamaşa kimi yadda qalmasına mane olub. Əgər pyesin bəxti gətirməyibsə də, deməli, onu bu günlə səsləşən tamaşa kimi hazırlamaq şansı daha böyükdür.

### Hər P.S. sonradan gələn söz deyil…

Yazının əvvəlində adını çəkdiyimiz dramaturqların hər birinin əsərləri, onların səhnə taleyi barədə də söz demək, nələrisə yada salmaq olardı. Məqsədimiz komediya tamaşası axtaran seyrçinin zövqünü oxşaya biləcək, bu yolla da cəmiyyətdə ucuz gülüşə meylin güclənməsinin qarşısını almaq üçün bir xatırlatma etmək idi. Yəni bundan sonrası teatrların, rejissorların öhdəsində…

**Gülcahan MİRMƏMMƏD**

№25 (1610)
5 aprel 2019
www.medeniyyet.az

# Öz dövrünü aşan şair

## “Sən mənim qədrimi biləsən deyə, bu cavan yaşımda ölümmü indi” sualını “müsahib”inin nəfinə reallaşdırmış Əli Kərim...

Füzuli haqqında: “Dünya səni qocaltdı, yaşıdın olsun deyə...”, “Bəzən necə gözəlsən, Ölüm, – sən ey səadət!”, “Səni yaxşı görmək üçün, Kədərimi bir daş kimi Qoymuşam ayağımın altına, Qalmışam boylana-boylana” demiş, övladlarını və “seçilmiş oxucularını” başdan-başa milli mənəviyyatla qidalandırası ləyaqətli bir ömür yaşamış Əli Kərim...

1931-ci il martın 18-də Göyçayda doğulub, 1948-də Azərbaycan Dövlət Universitetinin (BDU) Filologiya fakültəsinə daxil olub, yataqxana ucbatından Azərbaycan Teatr İnstitutunun Teatrşünaslıq fakültəsinə keçməli olan, buranın 3-cü kursundan isə (böyük ədəbiyyat-sənət istedadı “maneçiliyi”ndən) Moskvaya –1955-də fərqlənmə diplomu ilə bitirəcəyi Dünya Ədəbiyyatı İnstitutuna göndərilən, iki il sonra (1957) “İlk simfoniya” poeması elə həmin şəhərdə keçirilən “Tələbələrin VI Ümumdünya Festivalı”nda mükafata layiq görülən, bundan bir il ötər-ötməz orada ilk kitabı – “İki sevgili” (rus dilində) nəşr olunan, Bakıya qayıtdıqdan və qısa ömrü ərzində beş-on “ictimai xoş gün” görəcəyi “Azərbaycan” jurnalı redaksiyasında şeir şöbəsinin müdiri işləyəndən sonra…

Bəli, hər şey bu “sonra”dan –

### Sonra başlayıb…

Otuz səkkiz illik ömrü bitdikdən dərhal sonra, böyük dilçi alim Tofiq Hacıyevin “Əli Kərim ömrü poeziyamızda, öz şair sözü kimi, atributa çevrildi”, döyüşkən Rəsul Rzanın “Qayğı sözü – qayğı özü”, ulu Məmməd Arazın “Əli Kərim təvazökarlığı Əli Kərim istedadı ilə əkiz doğulubmuş” kimi postulatlarıyla dəyərləndiriləsi, vaxt ötdükcə, qədirbilən həmkarları, oxucuları və ədəbiyyatşünasların “Dinmə, ey kədər”, “Nə xoşbəxt imişəm!”, “Şeirimizin Əli Kərim zirvəsi”, “Şeirimizdə Əli Kərim həqiqətləri”, “Əli Kərim novatorluğu əbədi səfərdə”, “Əli Kərim qələminin tabloları”, “Poeziyamızın Əli Kərim kəhkəşanı” başlıqlı xatirələri, “Azərbaycan poeziyasında Əli Kərim mərhələsi”, “Əli Kərim üslubu” və b. monoqrafiya və məqalələrilə qiymətləndirəcəyi bu şair sağlığında pərdəarxası ideoloji faciələr yaşayıb.

Yox, bu nakam xələf dünənki sələflərinin “...baxıb Türkün bayrağına!” kimi hayqırtılar etməyib, sadəcə, çağdaşlarının “Bu büsatdan de-danış”, “Partbiletim sol cibimdə – ürəyimin başındadır” kimi bolşevik bağırtılarına qoşulmur, “Qaytar ana borcunu”, “Neyləyim, şeirlə dərd söyləyirəm” kimi şeirlər, kitablar yazırdı. “Babək” şeirində əqidə yolunda kəsilmiş qolları qəhrəmanlaşdırır,



mahnılaşdırılan misralarında tək elə “Nə gəlməz oldun”, “Qayıt” kimi trafaretlər yox, qəlbindəki milli istək “sətiraltılar”ını hədəfləyən “Azərbaycanım mənim!” mesajları, “Nə xoşbəxt imişəm!” nostaljiləri də edirdi...

Bəzən haqq qazanır insan öləndə,
Hətta unudulur ağır günahı.
Hamıya dərd olur “cavan getməyi”,
“Onu qoyardıqmı heç gözdən iraq?”

Bu şairin ilk gənclikdə yazdığı “Qaytar ana borcunu” şeirini hələ də onun vizit kartı sayırlar. Məncə, bu vurğunluqda bir günah da yatır – “Atamın xatirəsi” şeirinin kölgələnməsi “babal”ı. Diqqətlənək;

*Gizli-gizli məni süzüb gülərdi hərdən,*
*Durub-durub güc gələrdi əyri qəlyana.*
*Övladına bircə dəfə “can” söyləməkdən*
*Övlad üçün can verməyi asandı ona.*
*Sevgisi də soyuq idi – təzə əkini*
*Hər bəladan hifz eləyən qalın qar kimi.*
*Gah istəyib məni görə, gah da deyib ki,*
*qoy bilməsin...*
*Utanıb o öz ölümündən...*

Yaxud, son dövrlər az qala ritorika burulğanına çevrilən şəhidliyi yarım əsr bundan irəli “Nəsimi zirvəsi” ilə ucaltması:

*Təpədən dırnağadək*
*soyalar bir adamı;*
*Necə ola – dinməsin,*
*Böyük əqidəsindən*
*Bir misralıq enməsin...*

### “Gənclik şeirləri” (?)

Çox həmkarları üçün sözəqüvvət (bəzən, “bəzək”) kimi işlədilən bu tərkib bu şairin yaradıcılıq irsinə daha bir müdriklik, ağsaqqallıq qatır. Məsələn, 1954-də (23 yaşında) yazdığı “Bakı küləyi” və “O qıza” şeirlərindən parçalar:

*Sən ey soyuq xəzri, isti gilavar!*
*Gəlsə də yuxutək bu həyat sənə,*
*Min bir mübarizə xatırlat mənə.*
*Görsən tufansızam, görsən rahatam,*
*Qoyma xumarlanıb bir evdə yatam!..*

* * *

*Bilmirəm nə boydasan,*
*nə görkəmdə, nə adda,*
*Ağıl da öz yerində, kamal da öz yerində,*
*Bir gözəllik də görüm mənalı gözlərində.*
*Səni harda axtarım?*
*De nəçisən, de kimsən?*
*Tez ol, görün, tez ol gəl,*
*axtarıram səni mən –*
*İlk baharı gözləyən cavan bir ağac kimi.*
*Ay qız, gəl bahar kimi...*

R.Rzanın “Əgər şair ömrü əsərlərilə ölçülürsə, deməli, Əli vəfat etməyib, Əli sağdır”, M.Arazın “Əli Kərimi onsuz daha dərindən duyub-dərk elədik; daha o, araya söz qatıb, ondan danışmaq imkanımızı əlimizdən ala bilmir...”, V.Yusiflinin “Güman ki, Ə.Kərim toxluğu, Ə.Kərim “dilsiz”liyi onu heç vaxt XALQ ŞAİRİ olmağa qoymayacaqdı, amma o, Allahın bəxş etdiyi bənzərsiz “Əli Kərim statusu”nu heç vaxt qeyb etməyəcək” fikirlərindən sonra, əsl hədəf-xatirələrdən ibarət –

### Triptix

Ona görə rəssamlıq termini işlədirəm ki, bu üç xatirənin hər biri təbii bir lövhə...

Öncə, istəkli yarı – ömür-gün yoldaşı Elza xanımdan:

“1957-ci ildə tanış olmuşuq. Bir gün atamın yaxın dostu İ.Tapdıq gəldi ki, bir tərcümədə ona kömək edim. Terminlərdən birində çətinlik çəkdiyimdən İlyas bir dostuna zəng etdi və sözü mən izah etməli oldum. Tərslikdən, o da bilmədi və dedi, nömrəni verin, bir nəfərdən öyrənib deyərəm.

Və... sən demə, o adam Əli imiş və səsimdən xoşu gəlibmiş.

O tez-tez gəlib, yaşadığımız Lermontov küçəsində, eyni nöqtədə dayanar, rastlaşandasa bacımla danışardı. Bir kərə özümdə güc tapıb özüm dilləndim: “yaxşı da, kiməsə görə gəlib, başqası ilə danışırsız”. Dedi, yox, mən Lermontovu çox sevdiyimçün hər gün burdayam...

Sonralar incikliklərimiz də olurdu, güzəranımız ağır keçirdi, amma bunlar da mənə xoş idi. AZİ-nin (Neft-Kimya İnstitutu) əlaçı tələbəsiydim, deyilənə görə, çox da gözəldim; 3-ü kursda Rza Şah Bakıya gəlmişdi, aparıb ona gül verməyimi təkid etdilər və... sonra İran səfiri bizə elçi gəldi. Amma mən Əlini seçdim...

Onu necə sevdimsə, tələbəykən evlənməyə razılıq verdim. 1958-ci il aprelin 30-da toyumuz oldu və ilk poemasına görə verilən mükafatın puluyla aldığı birotaqlı evinə yığışdıq.

Mən səmimi danışıram, “nekroloq”-xatirələrində “ay məni belə sevirdi, mən belə sevirdim” yazan qadınlar kimi yox. Bir şeirində deyir e: “Ölüm gəlib, sadəlövh bir gözəli aldadırdı” - o məndim.

Birlikdə onbircə il yaşadıq. Dünyasını dəyişəndə 29 yaşım vardı.

Bir dəfə dedi, qolum ağrıyır. Sonra təngnəfəs oldu. Orxan da balacadır, hey ağlayır. Atam uşağın üstünə “kəs səsini!” qışqıranda Əli çox tutuldu. Gecəyarı məni daş kimi yuxu tutub, anam uşağa baxmaqçün sakitcə otağa girib görür Əli (“sanki axırıncı baxışlarla”) Orxana necə baxır, necə baxır! Hələ şeirlərindən birindəki vəsiyyət...

*…Gecələr*
*yazmaq,*
*oxumaq eşqi gələndə*
*asın təbəssümümü –*
*divar lampası kimi,*
*başları üstdən*
*üç canımın –*
*Paşamın,*
*Azərimin,*
*Orxanımın…*

O az müddətdə övladlarıyçün çox əziyyətlərə qatlaşdı. Rəhmətə gedəndən sonra dörd ay heç yaxın adamları da tanımırmışam. Nəhayət, özümə gəldim, uşaqlarımızı oxutdum. Ata-anam kömək edirdi, özünün kitabları çıxırdı. Mən o pulların hamısını uşaqların təhsilinə xərclədim. İndi iki oğlum elmlər doktorudur. Ancaq, sözsüz ki, Əlini əvəz eləyə bilmədim. O, nələr eləmirdi?! Onun kimi ata yox idi! Çalışırdım Əlinin ruhu şad olsun...

Yaxşı dostları onu yaman çox istəyirdilər. Meyitini xəstəxanaya aparanda M.Araz onu xərəyə qoymağa razı olmadı, köməkləşib qucaqlarında apardılar”.

Paşa Əlioğlu:

“Atamı, daha çox, gecə-gündüz yazıb-oxuyan biri kimi xatırlayıram.

“Atamın xatirəsi” adlı şeirində “O sərt idi...” yazan atam çox mülayim idi. Bizə yalnız oxumağı aşılayardı. Bir dəfə futbol oynarkən, gözüm yerdəki bir qəzet qırığına sataşdı və götürüb oxumağa başladım. Uşaqlar qışqır-bağır saldılar ki, əşşi, oxumaq bazarıdı, oyuna fikir ver. Sən demə, atam pəncərədən baxırmış. Bu mənzərəyə xeyli gülüb və anama deyib ki, deyəsən, bu uşaq da bizim çətin yolun yolçusu olacaq.

Güclü yumor hissi də vardı. Hər dəfə məktəbdən çıxanda bizi ya o qarşılayırdı, ya anam. Bir kərə (sonuncu dərs olmadığından) tək qayıtmalı oldum. Evə çataçatda çox bərk hürən bir itlə qarşılaşdıq, qorxduq və it qapımızadək mənim böyrümcə gəldi. Evdə hadisəni danışdım. Bu qorxulu “vaqeə” ab-havasını götürmək istəyən atam gülə-gülə qayıtdı ki, bəs deyirdiniz mənim oğlum evə tək gəlib…

O hər dəfə evə girəndə çox sevinirdik. Deyirdi, mövqeyindən, yaşından asılı olmayaraq hər kəsdən nələrsə öyrənmək mümkündü. Onda səkkiz-doqquz yaşım olardı, hərdən şeir yazırdım və atam mənim bu cəhdimi də dəstəkləyirdi.

Onda hamının zövqünə hörmət hissi də vardı, hamını öz zövqünə uyğunlaşdırmaq qabiliyyəti də. Bunlar onun həyat fəlsəfəsi idi.

Onun 38 yaşı vardı, mənim 10. Ən çox onun son baxışını xatırlayıram. Xəstəxanaya getdiyi an çönüb otağa ani bir göz gəzdirdi, bizə isə... elə bil, hələ də baxır...”

Və böyük istedad həmkarı Musa Yaqub:

“Ölümündən bir qədər əvvəl metronun “Gənclik” stansiyası perronunda dayanıb qatar gözlərkən vaqondan düşən Əli Kərimlə rastlaşdım. Hal-əhval tutduq, ayrılmaq məqamında gileyləndi, öz-özünə danışırmış kimi: “Mən “Gənclik”də düşəsi deyildim, səhvən, burda düşmüşəm”, - dedi.

O sözlər yadıma düşəndə həmişə kövrəlirəm. Əli həyat qatarından da “səhvən” gənclikdə düşdü...”

**Tahir ABBASLI**

# Yaratdığı obrazlar həyatiliyi ilə fərqlənirdi...

Ötən əsrin 20-ci illərində sənətə gələn və milli teatrın təşəkkülündə əməyi olan sənətkarlarımızdan biri də Xalq artisti Əjdər Sultanovdur. Bu il sənətkarın anadan olmasının 110 illiyi tamam olur.

Əjdər Əliabbas oğlu Sultanov 1909-cu ildə Bakıda dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Teatr Texnikumuna qəbul olunur. Müəllimlərinin diqqətini çəkən Əjdər hələ tələbə ikən Bakı-Türk İşçi Teatrına dəvət edilir. 1928-ci ildə təhsilini başa vurur və elə həmin teatrda da səhnə fəaliyyətini davam etdirir. 1933-cü ildə Gəncə Dram Teatrına göndərilir və 1938-ci ilə qədər bu kollektivdə çalışır. O, 1939-cu ildə yenidən Bakıya dönür. Akademik Dram Teatrında fəaliyyətə başlayır. Bu səhnədə Cəfər Cabbarlının “Od gəlini” (Qorxmaz), “Aydın” (Surxay), “Almaz” (Balarza və Hacı Əhməd), “Dönüş” (Qüdrət Arslan), Süleyman Rüstəmin “Qaçaq Nəbi” (Vəli, Təhmas bəy və Mehdi), Səməd Vurğunun “Xanlar” (Mamuliya), “İnsan” (Şahbaz), “Xosrov və Şirin” (Şapur və Xosrov) əsərlərində rol alır. Onun Ənvər Məmmədxanlının “Şərqin səhəri” (Bəhruz), Süleyman Sani Axundovun “Eşq və intiqam” (Çingiz), Məmməd Səid Ordubadinin “Dumanlı Təbriz” (Bağır xan), Hüseyn Cavidin “Şeyx Sənan” (Dərviş), Əbdürrəhim bəy Haqverdiyevin “Pəri cadu” (Qurban), İlyas Əfəndiyevin “Bahar suları” (Zəfər), “Atayevlər ailəsi” (Xosrov Atayev), Mehdi Hüseynin “Nizami” (Munis), Mirzə İbrahimovun “Məhəbbət” (Kərim) pyeslərinin tamaşalarındakı rolları da tamaşaçı rəğbəti qazanır.

Səhnə fəaliyyəti yüksək qiymətləndirilən Əjdər Sultanov 1943-cü ildə Əməkdar artist, 1949-cu ildə isə Xalq artisti fəxri adlarına layiq görülür.

Teatrşünas, professor İnqilab Kərimov görkəmli sənətkardan bəhs edərək yazır: “Əjdər səhnə mədəniyyəti, gur və gözəl səsi, aydın diksiyası ilə seçilən aktyor idi. Yaratdığı obrazları həyatiliyi, müdrikliyi və mənəvi paklığı ilə fərqlənirdi”.

Araşdırmalarda qeyd edilir ki, Əjdər Sultanov xasiyyətcə Hüseyn Ərəblinskiyə bənzəyib. O, istedadlı, zəhmətkeş, cəfakeş aktyor olmaqla bərabər, həm də müasirlərindən öyrənməyi çox sevib. Bu səbəbdən də Əjdər Sultanovun yaradıcılığında Sidqi Ruhullanın, Mirzəağa Əliyevin, Adil İsgəndərovun, İsmayıl Dağıstanlı və başqalarının təsiri duyulub. Əjdər Sultanov həm də



tanınmış pedaqoq olub, indiki Mədəniyyət və İncəsənət Universitetində səhnə danışığından dərs deyib. Professor Əzizağa Quliyev xatirələrində yazır: “Əjdər Sultanov Milli Dram Teatrında işlədiyi müddətdə bütün təcrübəli və istedadlı rejissorların tamaşalarında rollar oynamışdır. İ.Hidayətzadə, A.İsgəndərov, M.Məmmədov, A.Şərifov, T.Kazımov, Ə.Ələkbərov... onunla yaxından işləmişlər”.

Bir müddət Opera və Balet Teatrında fəaliyyət göstərən sənətkar eyni zamanda kinoya da çəkilib. Xüsusilə də filmlərin səssiz lentə alındığı dövrlərdə böyük xidmətlər göstərib. Yaratdığı obrazlar rəngarəngliyi və zənginliyi ilə seçilib. Xalq artistinin İkinci Dünya müharibəsindən sonrakı yaradıcılıq yolu çox məhsuldar olub. Bu dövrdə o həm Azərbaycan dramaturqlarının, həm də xarici ölkə müəlliflərinin səhnə əsərlərində parlaq obrazlar yaradıb.

Geniş tamaşaçı kütləsinin məhəbbətini qazanan Əjdər Sultanov 10 yanvar 1962-ci ildə, ömrünün 53-cü ilində vəfat edib.

**Savalan FƏRƏCOV**



# Dədə Şəmşiri saz, Kəlbəcəri söz ağladı...

Azərbaycan xalqının öz müstəqil dövlətini yaratmaq uğrunda apardığı mübarizə keşməkeşli, ağır və Ermənistanın ölkəmizdə törətdiyi qanlı, dəhşətli fəlakətlərlə, faciələrlə yaddaşımıza əbədi həkk olunub.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin Sumqayıt MKS-də 1918-ci il azərbaycanlıların soyqırımının 101-ci və Kəlbəcərin işğalının 26-cı ildönümünə həsr edilən anım tədbirində də bu dəhşətlər haqqında söz açılıb.

Tədbirin aparıcısı, Sumqayıt MKS-nin əməkdaşı Sevda Məhəmmədova Ermənistanın sovet rejiminin ermənipərəst rəhbərlərinin himayəsi altında Azərbaycana qarşı ərazi iddiaları ilə başladığı işğalçılıq müharibəsinin nəticələrindən bəhs edib. Bildirib ki, bu müharibə nəticəsində torpaqlarımızın 20 faizi işğal olunub, bir milyondan çox insan öz yurdundan didərgin salınıb, 877 yaşayış məntəqəsi – şəhər, kənd, qəsəbələr qarət edilib, dağıdılıb.

Tədbirdə iştirak edən kəlbəcərli qələm adamlarından “Azərbaycan” qəzetinin əməkdaşı Məhəmməd Nərimanoğlu xatırladıb ki, Dağlıq Qarabağ bölgəsindən kənarda yerləşən, 1936 kv. km ərazisi, 58 min nəfər əhalisi olan Kəlbəcər rayonu 1993-cü il mart ayının sonu, aprelin əvvəllərində Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib, dinc əhaliyə vəhşicəsinə divan tutulub, kəlbəcərlilər min illər boyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salınıb. Diqqətə çatdırılıb ki, işğaldan bir il öncə, 1992-ci il aprel ayının 7-dən 8-nə keçən gecə erməni faşistləri, Xocalı soyqırımının davamı kimi, Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndini tamamilə yandırmış, 779 nəfər dinc sakininə divan tutandan bu gözdən uzaq, könüldən iraq diyarı mühasirəyə salaraq, məkrli planının bir hissəsini reallaşdırmışdı. Erməni qəddarlığının həddi-hüdudu yox idi. 33 nəfər qətlə yetirilmişdi. Onların arasında olan 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmışdı...

Əməkdar jurnalist Rafiq Oday, Sumqayıt Poeziya evinin direktoru İbrahim İlyaslı, kəlbəcərli şairlərdən Yusif Hüseyn, Namiq Dəlidağlı, şairlərdən Elbrus Qayalı, Müşfiq Zülfüqar, Ədalət İzzətoğlu, Etibar Səfərli, Qaratel Azəri, Rəhilə Veysəlli, Ələsgər Həsənli, Asif Asiman, tarixçi-tədqiqatçı Taleh Şahməmmədov və digər çıxış edənlər bildiriblər ki, bütün bu dəhşətlər barədə 26 ildir kəlbəcərlilər danışır, deyir, mətbuatda yazır. Amma düşmən öz bildiyindədir. İkiüzlü siyasəti ilə bəşəriyyəti çaş-baş qoyan hegemon dövlətlər hələ də susur, yaxud işğalçı ilə təcavüzə məruz qalanları ya bilərəkdən ayırd etmək istəmir, ya da Ermənistana havadarlığını gizləmir. Demək, dünya ikili standartlar üzərində bərqərar olub.

Tədbirin bədii hissəsində Sumqayıt şəhər 8 nömrəli tam orta məktəbin şagirdi İlahə Hüseynzadə, Sumqayıt Dövlət Universitetinin tələbəsi İlkin Abbasovun da çıxışları yaddaqalan olub. Sumqayıt şəhər 29 saylı məktəbin şagirdi Fəridə Camallı Kəlbəcər haqqında oxuyub-öyrəndiklərini tədbir iştirakçılarına çatdırarkən bu işdə ona yaxından kömək edən MKS-nin əməkdaşları Aidə Qələndərova, Sevda Məhəmmədova, Məlahət İsgəndərova və Cəmilə Əliyevaya təşəkkürünü də unutmayıb. Tarixçi, araşdırmaçı-jurnalist Tahirə Zeynalova, şəhər Ağsaqqallar Şurasının üzvü Səidə Vəliyeva, MKS-nin fəal oxucularından təqaüddə olan alman dili müəllimi Vilayət Qasımov, Sumqayıt Dövlət Universitetinin Tarix fakültəsinin tələbələri də dəyirmi masaların burada müntəzəm təşkil olunduğundan razılıqla söz açıb, bədii qiraətlə, telli sazın həzin müşayiətilə Kəlbəcərə həsr edilən şeirləri səsləndiriblər.

# Sənət axşamlarından Nəsimi poeziyasına

## "Mədəniyyət" qəzetinin "Afişa" əlavəsinin aprel sayında dahi şairin söz xəzinəsindən seçmələr də dərc olunub

*əvvəli səh. 1-də*

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə hazırlanaraq çap olunan və pulsuz yayılan nəşrin aprel buraxılışında paytaxtın teatr və konsert müəssisələrinin, kino və sərgi zallarının aylıq afişası, tədbirləri haqqında məlumatlarla yanaşı, Nəsimi irsindən nümunələr – qəzəllərindən seçmələr də dərc edilib. Burada həmçinin böyük şairin Azərbaycan Milli Kitabxanasının fondunda saxlanılan kitabları, Nəsiminin həyat və yaradıcılığı ilə bağlı müxtəlif dillərdə işıq üzü görən nəşrlər haqqında qısa məlumat verilir.

"Mədəniyyət+Afişa" nəşrinin məqsədi Bakı sakinlərini, eləcə də şəhərə gələn qonaqları mədəniyyət və incəsənət məkanlarının fəaliyyəti barədə məlumatlandırmaq, əhalinin mədəni istirahətinin dolğun təşkili üçün bu müəssisələrin fəaliyyətinə informasiya dəstəyi verməkdir. Nəşr bu sayından etibarən oxuculara xalqımızın zəngin ədəbi xəzinəsinin incilərini təqdim etmək, mütaliəyə marağı təşviq etmək yönündə də öz töhfəsini vermək niyyətindədir. Nəsiminin söz dünyasına səyahət bu yolda ilk addımdır.

Qeyd edək ki, "Afişa" əlavəsinin aprel sayındakı bu yeniliyi oxucular da maraqla qarşılayıblar. Aprelin 3-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin müəllim və tələbələri ilə görüşdə nəşrin təqdimatı bunu bir daha təsdiqlədi.

Fakültənin dekanı, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə belə bir nəşrin ərsəyə gəlməsini müsbət qiymətləndirərək aylıq "Afişa" buraxılışının həm tələbələrin, həm də müəllimlərin



paytaxtın mədəniyyət ocaqları ilə ünsiyyəti, özəlliklə teatrlara marağın artırılması baxımından əhəmiyyətini diqqətə çatdırdı.








Bildirdi ki, hər zaman tələbələrimizə ölkəmizin mədəni həyatında fəal iştirak etməyi tövsiyə edirik. Bu yöndə universitetdə müxtəlif tədbirlər keçirilir. Eyni zamanda gənclərimiz şəhərimizdəki teatrlara, filarmoniyaya, digər konsert zallarına, sərgilərə getməli, nəinki orada nümayiş olunan əsərlər haqqında dolğun məlumatlı olmalı, həmin mədəniyyət ocaqlarının gözəl memarlıq üslubu ilə seçilən binalarının tarixini də bilməlidirlər. Dekan nəşrin yeni buraxılışında Nəsiminin irsinə yer verilməsini xüsusilə təqdir edərək bunun "Nəsimi ili"ndə dahi şairin zəngin yaradıcılığının təbliğinə, onun söz sənətinin daha geniş kütləyə çatdırılmasına bir töhfə olduğunu dedi. Mahirə Hüseynova nəşrin Azərbaycan Dövlət Pedaqoji Universitetində təqdim olunmasına görə minnətdarlığını bildirdi.

Qəzetin baş redaktoru Vüqar Əliyev "Mədəniyyət" qəzeti və "Afişa" əlavəsi haqqında məlumat verdi. Diqqətə çatdırıldı ki, "Afişa" əlavəsi 2018-ci ilin noyabrından Mədəniyyət Nazirliyinin dəstəyi ilə nəşr olunur və paytaxtın müxtəlif məkanlarında, mədəniyyət ocaqlarında, eləcə "ASAN Xidmət"in dəstəyi ilə Bakıdakı "ASAN Xidmət" mərkəzlərində sakinlərə təqdim edilir.

Vurğulandı ki, nəşrin aprel sayında İmadəddin Nəsiminin qəzəllərindən seçmələrin dərc edilməsi altı əsr öncə bütün bəşəriyyətə xitab etmiş böyük şair və mütəfəkkirin zəngin yaradıcılığının təbliği, populyarlaşdırılması istiqamətində yeni bir yanaşmadır. Qeyd olundu ki, Mədəniyyət Nazirliyi tərəfindən "Nəsimi ili"ndə şairin irsinin təbliği ilə bağlı bir sıra layihələr həyata keçirilir və "Afişa" nəşri vasitəsilə başlanan bu təşəbbüs də davam etdiriləcək.

Fakültənin tələbələri də rəngli tərtibatda, praktik formatda hazırlanan nəşrlə maraqla tanış olaraq bu vəsilə ilə Nəsimi poeziyasının incilərini bir daha oxumaq imkanı əldə edəcəklərini məmnunluqla bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, "Mədəniyyət" qəzetinin "Afişa" əlavəsinin aprel buraxılışının nüsxələri Azərbaycan Dövlət Pedaqoji Universiteti rəhbərliyinin dəstəyi ilə bu təhsil ocağının digər fakültələrində də müəllim və tələbələrə təqdim ediləcək.

Bundan əlavə, nəşri Bakıdakı 1 saylı "ASAN Xidmət" mərkəzində, həmçinin paytaxtın teatrlarında, digər mədəniyyət ocaqlarında pulsuz əldə etmək olar.

**F.HÜSEYNOV**

## Xatirə təqvimi 5-9 aprel

### Azərbaycan

**5 aprel 1909** – Bəstəkar Asəf Zeynallı (1909 - 27.10.1932) Şuşada doğulub. Simfonik, kamera-vokal və instrumental əsərlərin müəllifidir. "Uşaq süitası" ilə Azərbaycanda uşaq musiqisi repertuarının əsasını qoyub, xalq mahnılarını nota alıb.

**6 aprel 1717** – Böyük şair Molla Pənah Vaqif (1717-1797) Qazax mahalının Qıraq Salahlı kəndində doğulub. Yaradıcılığı Azərbaycan poeziyasının mühüm mərhələsini təşkil edir. Qarabağ xanlığında İbrahimxəlil xanın vəziri olub.

**6 aprel 1939** – Kinorejissor, Xalq artisti, professor Tofiq Hüseyn oğlu İsmayılov (1939 – 25.3.2016) anadan olub. Filmləri: "Gilas ağacı", "Mən mahnı qoşuram", "Musiqi müəllimi", "Vulkana doğru", "Oxuyur Müslüm Maqomayev" və s.

**7 aprel 1906** – Böyük ədib Cəlil Məmmədquluzadənin redaktoru olduğu Azərbaycanın ilk satirik nəşri – "Molla Nəsrəddin" jurnalının birinci sayı çapdan çıxıb.

**9 aprel 1905** – Şair, ədəbiyyatşünas, tərcüməçi Cəfər Rəmzi (Cəfər Balaəmi oğlu İsmayılzadə; 1905 – 11.09.1996) Bakının Mərdəkan kəndində doğulub.

**9 aprel 1946** – Tanınmış aktyor və rejissor Ceyhun Mirzəyev (1946 – 5.3.1993) Ağdam rayonunun Abdal Gülablı kəndində anadan olub. "Ögey ana", "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərdə çəkilib. Rejissor işi: "Bəyin oğurlanması" (V.Mustafayevlə birgə), "Fəryad" (eyni zamanda baş rolun ifaçısı).

### Dünya

**5 aprel 1588** – İngilis filosofu Tomas Hobbs (Thomas Hobbes; 1588-1679) anadan olub.

**5 aprel 1900** – Amerika aktyoru, "Oskar" mükafatçısı Spenser Treysi (Spencer Tracy; 1900-1967) anadan olub.

**5 aprel 1945** – Türk bəstəkarı və müğənnisi, türk rok musiqisinin yaradıcılarından biri Cem (Muxtar) Karaca (1945 - 8.2.2004) anadan olub.

**6 aprel 1826** – Fransız rəssamı, simvolizmin nümayəndəsi Qustav Moro (Gustave Moreau; 1826-1898) anadan olub. Əsərləri: "Edip və Sfinks", "Yupiter" və s.

**6 aprel 1929** – Alman əsilli Amerika bəstəkarı və dirijoru, film musiqilərinə görə "Oskar" mükafatçısı Andre Previn (Andreas Ludwig Priwin; 1929-2019) anadan olub.

**7 aprel 1883** – İtaliya rəssamı və heykəltəraşı, futurizm cərəyanının banilərindən biri Cino Severini (1883-1966) anadan olub.

**7 aprel 1889** – Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1945) laureatı Qabriela Mistral (Gabriela Mistral - əsl adı Lucila Godoy Alcayaga; 1889-1957) anadan olub.

**8 aprel 1692** – İtaliya bəstəkarı Cüzeppe Tartini (1692-1770) anadan olub. "Şeytan sonatası" ("Sonate du diable") ilə məşhurluq qazanıb.

**8 aprel 1859** – Alman filosofu, fenomenologiyanın banisi Edmund Husserl (1859-1938) anadan olub.

**9 aprel 1821** – Fransa şairi və ədəbiyyatşünası Şarl-Pyer Bodler (Charles Pierre Baudelaire; 1821-1867) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA 6-9 aprel

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 6-7 aprel | Moskva Liliputlar Sirkinin təqdimatında "Kiçik adamların böyük nağıl-tamaşası" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 6 aprel | C.Məmmədquluzadə - "Ölülər" | 19.00 |
| 7 aprel | Ə.Əmirli - "Ah, bu uzun sevda yolu" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 6 aprel | H.Andersen - "Düyməcik" (rus dilində) | 12.00 |
| | İ.Sadıqov - "Molla Nəsrəddinin beş arvadı" | 19.00 |
| 7 aprel | C.Barri, Qrim qardaşları - "Bremen musiqiçiləri və Pen" | 12.00 |
| | Elçin - "Baladadaşın toy hamamı" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 6 aprel | V.Neverov – "Üç donuz balası, Qırmızıpapaq və boz canavarlar" | 12.00 |
| | P.Qladilin – "Afina axşamları" | 19.00 |
| 7 aprel | V.Reznikova – "Durna balığının əmri ilə" | 12.00 |
| | V.Korkiya, A.Lavrin – "Kazanova: sevgi dərsləri" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 6 aprel | A.Lindqren - "Balaca və damda yaşayan Karlson" | 14.00 |
| | E.Şmitt - "Tanrıya on dörd məktub" (premyera) | 19.00 |
| 7 aprel | A.Tolstoy "Buratinonun macəraları" | 14.00 |
| | E.Şmitt - "Tanrıya on dörd məktub" | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 6 aprel | N.Kazımov - "Ələddin" | 12.00, 14.00 |
| | Rus xalq nağılı - "Durna balığı" (rus dilində) | 16.00 |
| 7 aprel | Rus xalq nağılı - "Qoğal" | 12.00, 14.00 |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 16.00, 18.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər pr. 36 - Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 6 aprel | G.Dumbadze - "Məhşər günü" | 19.00 |
| 7 aprel | T.Vahid - "Quş dili" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 6 aprel | E.Rzayev - "Qoca və Mələk" | 18.00 |
| 7 aprel | B.Xanızadə - "Fəlakət və insan" | 14.00 |
| | S.Hacıyeva - "Dejavü" | 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 6 aprel | T.Quliyev adına 12 saylı 11 illik Musiqi məktəbi Q.Qarayev adına Dövlət Kamera Orkestri (dirijor Yalçın Adıgözəlov) | 19.00 |
| 7 aprel | "World Harmony" Beynəlxalq müsabiqəsi qaliblərinin qala-konserti | 14.00 |
| 8 aprel | "Gənclərə dəstək" layihəsi çərçivəsində konsert Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (dirijor Ağaverdi Paşayev) | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 9 aprel | "Muğam Televiziya Müsabiqəsi - 2019" | 21.00 |

**Azərbaycan Dövlət Mahnı Teatrı (R.Behbudov küç. 12)**

| | | |
|---|---|---|
| 6 aprel | "Günay" Uşaq teatrının tamaşası | 12.00 |

## "Mədəniyyət.AZ" jurnalının növbəti sayında

"Mədəniyyət.AZ" jurnalının yeni sayı işıq üzü görüb. Jurnalın bu sayında da tarix və mədəni irsimiz, ədəbiyyat və incəsənətimizlə bağlı maraqlı yazılar, eləcə də elmi məqalələr yer alıb.

Nəşrdə həmçinin 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması ilə bağlı ziyalıların fikirləri təqdim edilir, bu il 150 illiyi qeyd olunan böyük Mirzə Cəlilin irsi araşdırılır.

Ədəbi-mədəni əlaqələr kontekstində soydaşımız – Özbəkistanın görkəmli ədibi, ədəbiyyatşünas, 100 illik yubileyi qeyd olunan Maqsud Şeyxzadə ehtiramla anılır.

"Ədəbiyyat" bölümündə həm də "Molla Nəsrəddin" ədəbi məktəbinin tanınmış nümayəndəsi Əli Nəzmi və XX əsrin 50-60-cı illərində Amerikada Azərbaycan ədəbiyyatı üzrə elmi ad alan ilk tədqiqatçımız Səkinə Birincianın xatirəsinə həsr olunmuş məqalələr dərc olunub.

Fransız aktyoru və rejissoru Jan-Lui Barronun "Teatr haqqında düşüncələr" kitabından fraqmentlər də oxucuların marağına səbəb olacaq.

## Şəhid polkovnik-leytenant Raquf Orucova həsr olunmuş roman

Yazıçı-jurnalist Şərif Ağayarın 2016-cı il Aprel döyüşlərinin şəhidi, cəsur kəşfiyyatçı, polkovnik-leytenant Raquf Orucova həsr olunmuş "Komandir" romanı çapdan çıxıb.




Ömrünün 25 ilini torpaqlarımızın bütövlüyü uğrunda döyüşlərə sərf edən, "Murov qartalı" adını qazanan Raquf Orucovun həyatı və fəaliyyəti "Komandir" romanında real faktlar əsasında qələmə alınıb.

Roman 4 hissədən ibarətdir. Birinci hissədə polkovnik-leytenant Raquf Orucovun uşaqlığı, gəncliyi və Ağdamda iştirak etdiyi döyüşlər əks olunub. İkinci və üçüncü hissə onun kəşfiyyatçı kimi Murovdakı fəaliyyətindən, dördüncü hissə isə qəhrəmanın həyatının digər dövrləri və onun əbədiyyətə qovuşduğu Talışdağ uğrunda döyüşlər haqqındadır.

## "Türkiyə ədəbiyyatında yeni hekayəçilik"

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Sədaqət Qasımlının "Türkiyə ədəbiyyatında yeni hekayəçilik" kitabı çapdan çıxıb.

Kitabda Tənzimat dövrü ədəbiyyatına aid bölümdə Ahmet Mithat, Nabizade Nazım, Samipaşazade Sezai kimi ədiblərin yaradıcılığı, Cümhuriyyət dövründən Memduh Şevket Esendal, Sabahattin Ali, Ahmed Hamdi Tanpınar, Orxan Kamal, Əziz Nesin, Haldun Taner və başqalarının yaradıcılığı araşdırılır. 50-ci illərdən sonrakı hekayənin yeni ənənələrindən bəhs olunarkən Samim Kocagöz, Yaşar Kemal, Fakir Baykurtun yaradıcılığına, Bekir Yıldızın realist hekayələrinə diqqət yetirilir.

## Mehdi Hüseynin xatirəsi yad edilib

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Xalq yazıçısı, Dövlət mükafatı laureatı Mehdi Hüseynin (1909-1965) anadan olmasının 110 illiyi münasibətilə tədbirlər planı hazırlanıb.



Kitabxananın əməkdaşları Fəxri xiyabana gələrək yazıçının məzarını ziyarət ediblər.

Kitabxanada təşkil olunan "Mehdi Hüseyn dramaturgiyası" adlı kitab sərgisinə baxış keçirilib.

"Mehdi Hüseyn irsinin zənginliyi" mövzusunda mühazirədə ədibin yaradıcılığından söz açılıb. Bakı Dövlət Universitetinin tələbələri mövzu ətrafında çıxışlar ediblər.

## Baxış-müsabiqəyə yekun vurulub

Şəki şəhər M.F.Axundzadə adına Mədəniyyət mərkəzində "Novruz təranələri" ənənəvi baxış-müsabiqəsi qaliblərinin yekun konserti olub. Konsert baxış-müsabiqənin 40 illiyinə həsr olunub. Müsabiqədə Şəki şəhəri və kəndlərin ümumtəhsil məktəblərinin şagirdləri iştirak edib.



Münsiflər heyətinin qərarı ilə Göybulaq folklor klubunun rəqs qrupu III, Qudula kənd folklor klubunun "Qönçə" folklor kollektivi, B.Axundov adına folklor evinin "Bənövşə" rəqs kollektivi, V.İbrahim adına şəhər folklor evinin bədii qiraətçiləri II, Baş Küngüt kənd diyarşünaslıq evinin bədii özfəaliyyət kollektivinin üzvü, saz ifaçısı Murad Məmmədrəhimov və İ.Salmanov adına şəhər folklor klubunun bədii qiraət dərnəyinin üzvü Zümrüd Əliyeva I yerlərə layiq görülüblər. N.Bədəlov adına şəhər folklor evinin folklor kollektivi həvəsləndirici mükafatla təltif olunub.

Mədəniyyət mərkəzinin direktoru Ağəli Cəlilov çıxış edərək müsabiqə iştirakçılarına və münsiflər heyətinə minnətdarlığını bildirib.

# Parisdə azərbaycanlı rəssamların əsərləri nümayiş olunur



Parisdə Azərbaycan-Fransa Dialoqu Assosiasiyası (ADFA) və "Asmar Art" Assosiasiyasının birgə təşkilatçılığı ilə "Village Suisse" incəsənət qalereyaları və antikvarlar mərkəzində azərbaycanlı rəssamların əsərləri sərgilənir.

Mərkəzin "Beaute du matin calme" qalereyasında təşkil olunmuş sərginin əsas məqsədi Azərbaycan incəsənət nümayəndələrinin yerli ictimaiyyətə tanıdılmasıdır. Sərgidə rəssam soydaşlarımız – Fransada yaşayan Sahib Əsədli və Belçikada yaşayan Əli Seyranın əsərləri də nümayiş olunur. Rəssamların Fransa və Belçikada dəfələrlə fərdi sərgiləri keçirilib.

Ekspozisiyada ölkəmizin tarixi abidələrini, təbiətini əks etdirən tablolar, eləcə də natürmortlar ziyarətçilərin marağına səbəb olub.

Sərgi aprelin 8-ə qədər davam edəcək.

# Alman musiqiçinin "Saz"ı

Alman musiqiçisi Petra Nachtmanova musiqi aləti olan saz haqqında film çəkib.

Türkiyə mediasının məlumatına görə, Berlində "Türk məhəlləsi" kimi tanınan Kreuzberqdə sazı dinlədiyini söyləyən filmin müəllifi deyib: "Sazın əfsanəvi ritmi məni heyran etdi. Rejissor Stepan Talneau ilə birlikdə bu ovsunlayıcı musiqi aləti haqqında film çəkdik".

Alman və fransız sənətçilərin birgə yaradıcılıq işi olan filmin çəkilişlərinə Berlində başlanılıb, sonrakı çəkilişlər Bosniya və Herseqovina, Albaniya, Bolqarıstan, Türkiyə, Gürcüstan və İranda aparılıb.

P.Nachtmanova ekran əsərinin musiqinin sehrli gücünü ifadə edən uzun bir hekayə və təsirli səyahət olduğunu söyləyib.



Ekran əsərinin ilk nümayişi aprelin 5-də açılan İstanbul Beynəlxalq film festivalında gerçəkləşəcək.

# Mədəniyyətimizin yeni bələdçisi

## "Culture Guide" kataloqu işıq üzü görüb

Ölkəmizə təşrif buyuran qonaqların mədəni istirahətini mənalı və yaddaqalan etmək, onlara Azərbaycanın tarixi və müasirliyi, zəngin mədəniyyəti, çoxçalarlı incəsənəti barədə dolğun məlumat vermək məqsədi daşıyan "Culture Guide" ("Mədəniyyət bələdçisi") kataloqunun ilk sayı çapdan çıxıb. Nəşr "Baku Guide" MMC tərəfindən ingilis və rus dillərində hazırlanıb. Xatırladaq ki, "Baku Guide" markası altında daha öncə eyniadlı turistik jurnal-kataloq nəşr edilirdi.

"Baku Guide"ın yeni nəşri də ingilis və rusdilli oxuculara mədəniyyətimizin bələdçiliyini edir. Aprel buraxılışında ölkəmizin



mədəni həyatı, o cümlədən paytaxtın teatr və konsert müəssisələrinin repertuarı, muzey və sərgi salonlarının afişası, Bakının və bölgələrimizin tarixi-mədəni irs məkanları oxuculara təqdim olunur.

Nəşr Azərbaycan haqqında, ölkəmizin tarixi və müasir inkişafı, mədəni irsi ilə bağlı təqdimat yazısı ilə açılır. Mədəniyyətimizin ayrı-ayrı sahələri, Azərbaycanın dünya sivilizasiyasının ən qədim məskənlərdən biri olması, tarixi əraziləri, dövlətçilik keçmişi, Azərbaycan Xalq Cümhuriyyəti, müstəqillik illərində ölkəmizin keçdiyi yol diqqətə çatdırılır. Ölkəmizin hər il mötəbər beynəl-




xalq tədbirlərə ev sahibliyi etdiyi bildirilir, 2-3 may tarixində Bakıda keçiriləcək 5-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumu haqqında məlumat verilir. Azərbaycanın müsəlman Şərqində ilk peşəkar teatrın, kinematoqrafın, operanın yarandığı ölkə olduğu, Orta əsrlərdən Nizami, Nəsimi, Füzuli kimi şair-mütəfəkkirləri ilə tanındığı, 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunduğu vurğulanır. Bildirilir ki, Azərbaycanın bir çox qeyri-maddi mədəni irs nümunələri UNESCO tərəfindən dünya mədəniyyəti xəzinəsinə daxil edilib.

Azərbaycan xalçaları haqqında yazıda xalq sənətinin bu qədim növünün tarixi, məktəbləri, müasir dövrdə xalçaçılıq ənənələrinin yaşadılması və təbliğindən, dünyada ilk olan Azərbaycan Xalça Muzeyindən bəhs olunur.

Aprelin 18-i Beynəlxalq abidələr və tarixi yerlər günüdür. UNESCO yanında Abidələrin və tarixi yerlərin mühafizəsi üzrə Beynəlxalq Şuranın təşəbbüsü ilə təsis olunan bu gün hər il ölkəmizdə də qeyd olunur. Bu mövzuya dair yazıda Azərbaycanın qədim abidələr diyarı olduğu, Naxçıvanda Möminə xatın türbəsi, Şəki xanlarının sarayı, Bakıda Şirvanşahlar saray kompleksi kimi abidələrin Şərq və dünya memarlığının möhtəşəm nümunələri kimi tanındığı diqqətə çatdırılır, tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası ilə bağlı görülən işlərdən söz açılır.

"Hər zaman bizimlə olan bayram" – bu başlıq altında dərc olunan yazıda milli-mədəni irsimizin, adət-ənənələrimizin ən qədim yaddaşı olan Novruz bayramının bu il də ölkəmizdə müxtəlif festival və şənliklərlə qeyd edildiyi vurğulanır.

"Culture Guide"ın oxucularına Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə ikinci dəfə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı haqqında da məlumat verilir, festivalın aprel ayında hansı rayon və şəhərlərdə gerçəkləşəcəyi diqqətə çatdırılır.

Nəşrdə paytaxtda fəaliyyət göstərən teatrlar, konsert məkanları, muzeylər, kino və sərgi zallarının aprel ayı üzrə afişası ilə yanaşı, hər bir mədəniyyət ocağı, onların




yerləşdiyi tarixi binalar haqqında yığcam informasiya, ünvan və telefon nömrələri, Azərbaycan Milli Kitabxanası, 2018-ci ildən fəaliyyət göstərən Bakı Kitab Mərkəzi haqqında məlumat verilir. Həmçinin Bakının tarixi və müasir memarlıq nümunələri, İçərişəhər, minilliklərin daş yaddaşı olan Qobustan qoruğundan da bəhs olunur.

Ölkəmizin qonaqlarına mədəniyyətimizin bələdçiliyini edən nəşr nəfis tərtibatda hazırlanıb. Nəşrin üz qabığındakı lirik mənzərə – dünya şöhrətli rəssamımız Səttar Bəhlulzadənin "Kəpəzin göz yaşları" əsəri isə bu bələdçiliyə ilk andan xüsusi ovqat qatır.

# Özbəkistan kanalında ölkəmizlə bağlı videomaterial yayımlanıb

Özbəkistanın "Sevimli" televiziya kanalının "Zamon" proqramında Dilnoza Saidovanın Azərbaycanla bağlı geniş videomaterialı yayımlanıb.

Material Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin Azərbaycana mediaturu çərçivəsində hazırlanıb.

Materialda Fəxri xiyaban haqqında danışılır, bildirilir ki, burada Azərbaycanın tanınmış dövlət, elm, mədəniyyət, incəsənət xadimləri dəfn olunub. Çəkiliş qrupu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib. SSRİ xalq artistləri Bülbül, Rəşid Behbudov və Müslüm Maqomayevin, Özbəkistanda tamaşaçıların "Qayınana" filmindən yaxşı tanıdığı Xalq artisti Nəsibə Zeynalovanın qəbirləri üzərinə də çiçək dəstələri qoyulub. Özbək qonaqlar Şəhidlər xiyabanında da olub, ölkəmizin azadlığı və müstəqilliyi uğrunda canlarını fəda edən insanların məzarlarına çiçək dəstələri düzüblər.

Verilişdə jurnalist Qəbələ, Qusar rayonlarına səfərindən, Şahdağ Turizm Mərkəzindən də söhbət açır.

# Türkiyənin mədəni irsi və yeni tanıtım imici Bakı sərgisində

Türkiyənin ənənəvi əl sənəti nümunələri aprelin 4-də Bakıda işə başlayan 16-cı Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində (AİTF) qardaş ölkənin stendində nümayiş olunur.



Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət və təbliğat müşaviri İrfan Çiftçinin verdiyi məlumata görə, builki AİTF sərgisindəki stenddə yenilənmiş "Türkiyə" imici və "2019 Göbeklitepe ili" önə çıxarılıb. Göbeklitepe Türkiyənin Şanlıurfa şəhərinin 20 km-də Örencik kəndi yaxınlığında aşkar edilən Neolit dövrünə aid abidə – dünyada ən qədim tikililərin (Misir piramidalarından da 7 min il qədim) tapıldığı məkandır. Bu il Türkiyədə "Göbeklitepe ili" elan edilib. Türkiyə stendində ziyarətçilərə bu barədə ətraflı məlumat verilir.

Türk folkloru və qədim Zeybək rəqslərinin müşayiəti altında sərginin qonaqları stenddə sərgilənən sənət nümunələri ilə tanış olurlar. Ziyarətçilərə Türkiyənin unikal və ənənəvi sənətlərindən olan Tokat əlyazmaları, İznik çini qabları və Ebru sənətinin tanınmış ustaları tərəfindən onun necə hazırlandığı göstərilir. Türk xalq oyunları və rəqsləri nümayiş olunur. Qonaqlara ənənəvi qədim texnikası ilə bişirilən türk qəhvəsi, türk lokumu, paxlavası, digər şirniyyatlar təqdim edilir.

İrfan Çiftçinin bildirdiyinə görə, dünyanın ilk beş böyük turizm ölkəsindən biri olan Türkiyənin bu ildən etibarən "Türkiyə eviniz" (Home Of Turkey) şüarı əvəzinə sadəcə "Türkiyə" loqosu ilə təbliğatı aparılacaq. Sərgiyə qardaş ölkədən 9 şirkət, ümumilikdə 50-dək nümayəndə qatılıb.

Stendi ziyarət edənlər arasından püşkatma yolu ilə üç nəfərə Türkiyə Hava Yolları tərəfindən xüsusi səyahət bileti veriləcək.

# Dünyanın ən böyük divar xalçası

Aprelin 5-dən 10-dək Özbəkistanın Surxandərya vilayətində keçiriləcək Baxşi Festivalında Baysun xalçaçılarının toxuduğu dünyanın ən böyük süzənəsi də nümayiş olunacaq. Süzənə ipək, məxmər və pambıq parça üzərində toxunan divar xalçasıdır.



Uzunluğu 25, eni 6 metr, çəkisi 60 kiloqram olan süzənənin üzərində 25 toxucu və usta işləyib. Baysun naxışlarının və ornamentlərinin yer aldığı süzənə regionun milli koloritini tam mənası ilə əks etdirir.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə, katiblər Cəlal Abbasov, Sərdar Fərəcov, Aliyə Məmmədova, ittifaqın İdarə heyəti və kollektivi Azərbaycan Bəstəkarlar İttifaqının üzvü

**Babək Qurbanovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

# Banqladeş Azərbaycanı özünə dost, qardaş hesab edir

Türkiyənin paytaxtı Ankarada Banqladeşin müstəqilliyinin 48-ci ildönümü və Milli günü münasibətilə mərasim keçirildi. Qeyd edək ki, Banqladeş Xalq Respublikasının Türkiyə böyükelçisi Allama Siddiki, iqamətgahı Ankarada olmaqla, ölkəsinin Azərbaycan üzrə də səfiridir.

Tədbirdə Türkiyənin rəsmiləri, xarici diplomatik korpusun nümayəndələri, digər qonaqlar iştirak edirdi.

Səfir Allama Siddiki mərasimdə çıxış edərək bildirdi ki, Türkiyə Banqladeş üçün qardaş ölkədir və iki ölkə arasında çox dərin, köklü münasibətlər var. O, iki ölkə arasında təhsil, müdafiə, ticarət və iqtisadiyyat sahələrində də əlaqələrin getdikcə güclənəcəyinə əminliyini vurğuladı.

Türkiyənin təhsil naziri Ziya Səlcuq da çıxışında iki ölkə arasında münasibətlərə toxundu, bu əlaqələrin daha da genişlənəcəyini diqqətə çatdırdı.

Səfir Allama Siddiki bizimlə söhbətində Azərbaycan-Banqladeş əlaqələrinin inkişafından məmnunluğunu ifadə etdi. Bildirdi ki, Banqladeş Azərbaycanı da özünə dost, qardaş hesab edir: "Hər zaman münasibətlərin yüksək səviyyədə olmasının tərəfdarıyıq. Banqladeş Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir".

Tədbirdə Banqladeş milli musiqiləri, rəqsləri və mahnıları ifa edildi, qonaqlara milli mətbəxdən nümunələr təqdim olundu.

**Mehparə SULTANOVA**
**Ankara**

# Bir milyon dollar müqabilində "Eurovision-2019"da oxuyacaq

Dünya şöhrətli amerikalı müğənni Madonna bir milyon dollar müqabilində Təl-Əvivdə keçiriləcək "Eurovision" mahnı müsabiqəsində çıxış edəcək. Bu qonorarı ona milyarder Silvan Adams ödəyəcək.

Bildirilir ki, Adams müsabiqənin tərəfdaşı olmağı ona təklif etmiş İsrail Televiziya və Radio Yayımları Korporasiyası ilə danışıqlardan sonra bu addımı atıb.

Xatırladaq ki, 64-cü "Eurovision" beynəlxalq mahnı müsabiqəsi bu il mayın 14-18-də Təl-Əviv şəhərində keçiriləcək. Azərbaycanı müsabiqədə Çingiz Mustafayev təmsil edəcək.

# Yeddi min əhalisi olan şəhərdə 320 metrlik göydələn

Qərbi Avropada ən hündür bina Danimarkanın kiçik şəhərində inşa ediləcək. Yeddi min əhalisi olan Brande şəhərində binanın tikilməsi planı çoxdan olsa da, şəhərin bələdiyyə şurası tərəfindən martın ortalarında təsdiqlənib.

Hündürlüyü 320 metr olacaq yeni göydələn Londonun "Shard" qülləsindən hündür və təxminən Parisin Eyfel qülləsi ilə eyni ucalıqda olacaq.

İkast-Brande kommunasının meri İb Lauritsen deyib: "Bu, Brande şəhəri üçün böyük əhəmiyyət kəsb edəcək. Lakin mən bu məsələnin bütün Mərkəzi Yutlandiya üçün əlamətdar olacağına şübhə etmirəm".

Danimarka landşaftının hamar olması sayəsində qülləni təxminən 65 kilometr məsafədən görmək mümkün olacaq. Göydələnin tikintisinin 2023-cü ildə başa çatdırılması planlaşdırılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 1135
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.